Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 227 (7954) ÇƏRŞƏNBƏ, 10 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik ölkədir



## İqtisadi müstəqilliyi dövlətimizin tarixi nailiyyəti kimi səciyyələndirən İLHAM ƏLİYEV regionların sosial-iqtisadi inkişafı ilə bağlı IV Dövlət Proqramının hazırlandığını bildirdi

■ 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır.

■ Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır, eyni zamanda xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır.

■ Azərbaycanda daxili risklər mənbəyi yoxdur və biz öz siyasətimizlə, görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqının rahat həyatını təmin edirik və edəcəyik.

■ 2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib. Doqquz ay ərzində mən 12 xarici səfər etmişəm və 15 dövlət və hökumət başçısı Azərbaycana səfərlər etmişdir. Bu onu göstərir ki, Azərbaycanın çox çevik və çoxşaxəli xarici siyasəti vardır. İkitərəfli formatda əldə edilmiş razılaşmalar icra edilir, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim sözümüzə inanırlar. Çünki sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

■ Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib.

■ Bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq.

■ İqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Bu ilin doqquz ayında ümumi daxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb.

■ İnflyasiya cəmi 2,6 faizdir, əhalinin gəlirləri isə 9,5 faizdir. Yəni gəlirlər inflyasiyanı üstələyir. Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur. Bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna qoyulub.

■ Valyuta ehtiyatlarımız 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri biz əlavə 3 milyard dollar yığmışıq. Biz öz vəsaitimizə böyük qənaətlə yanaşırıq. Həm ölkə qarşısında duran vacib məsələləri həll edirik, investisiya layihələrini, infrastruktur layihələrini icra edirik, sosial məsələlərin həllini təmin edirik, eyni zamanda ehtiyatlarımızı da artırırıq və əminəm ki, ilin sonuna qədər daha da artacaq.

■ Doqquz ayda xarici ticarət dövriyyəsi 37 faiz artıb. İxrac da təxminən bir o qədər artıb. Qeyri-neft ixracı təxminən 14 faiz artıb. Bu ilin doqquz ayında ölkəmizdə 85 min daimi iş yeri açılmışdır.

■ İstənilən mötəbər beynəlxalq maliyyə qurumu bu nəticələri görərkən bir qənaətə gələ bilər ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur.

■ Biz istəyirik ki, Azərbaycan ilə daha çox hesablaşsınlar. Biz istəyirik ki, Azərbaycandan daha çox məsələlər asılı olsun və buna nail oluruq. Regionda baş verən hadisələr, bizim təşəbbüsümüzlə icra edilən nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə apardığımız işlər siyasi çəkimizi böyük dərəcədə artırıb. Biz prinsipial siyasət aparırıq. Bütün prinsipial məsələlərlə bağlı öz mövqeyimizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik.

■ Azərbaycan iqtisadiyyatı istənilən dövrdə öz dayanıqlılığını nümayiş etdirir. Hətta bir neçə il bundan əvvəl dünyanı bürümüş maliyyə-iqtisadi böhranının ikinci dalğası dövründə də Azərbaycan iqtisadiyyatı dayanıqlılığını təmin etmişdir.

■ Bu il iqtisadi sahədə köklü islahatlar davam etdirilir. Biz bu islahatların nəticələrini görürük. Xüsusilə vergi və gömrük sistemində aparılan islahatlar böyük dəyişikliyə, müsbətə doğru dəyişikliklərə səbəb olur. İslahatlar davam etdirilməlidir. Bu gün sahibkarları, ictimaiyyəti narahat edən vergi və gömrük sahəsində işlərlə, məsələlərlə bağlı bütün lazımi addımlar atılmalıdır ki, bu xoşagəlməz hallara son qoyulsun.

■ Struktur islahatları, şəffaflıq, korrupsiyaya, rüşvətxorluğa qarşı ciddi mübarizə gömrük orqanlarında 800 milyon manatdan çox əlavə vəsaitin toplanmasına səbəb olubdur.

■ Sahibkarlar vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Bilirəm ki, bəzi sahibkarlar bəzi dövlət məmurlarına arxalanırlar, o dövr artıq keçibdir. Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq.

Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı iclası giriş nitqi ilə açdı.



## Prezident İlham Əliyevin giriş nitqi

- Bu gün biz ilin 9 ayının yekunlarını müzakirə edəcəyik, ilin sonuna qədər görüləcək işlər haqqında danışacağıq. Deməliyəm ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır.

Bugünkü dünyada vəziyyəti nəzərə alsaq, deməliyik ki, bu gün sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Azərbaycanda isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır, eyni zamanda xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır. Dünyada və xüsusilə yaşadığımız bölgədə vəziyyət gərgin olaraq qalır, yeni qarşıdurma, münaqişə ocaqları yaranır. Əvvəlki illərdə yaranmış gərgin vəziyyət, əfsuslar olsun ki, aradan qaldırılmır. Belə olan vəziyyətdə biz, əlbəttə ki, özümüzü mümkün olan xarici risklərdən daha da ciddi qorumalıyıq və qoruyuruq. Bir daha qeyd etmək istəyirəm, Azərbaycanda daxili risklər mənbəyi yoxdur və biz öz siyasətimizlə, görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqının rahat həyatını təmin edirik və edəcəyik.

Bu istiqamətdə bir çox addımlar atılır, o cümlədən xarici siyasətlə bağlı addımlar. Deyə bilərəm ki, 2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib. Mənim həmkarlarımla həm ikitərəfli, həm çoxtərəfli formatlarda bir çox görüşlərim olub. Doqquz ay ərzində mən 12 xarici səfər etmişəm və 15 dövlət və hökumət başçısı Azərbaycana səfərlər etmişdir. Bu onu göstərir ki, Azərbaycanın çox çevik və çoxşaxəli xarici siyasəti vardır. İkitərəfli formatda əldə edilmiş razılaşmalar icra edilir, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim sözümüzə inanırlar. Çünki sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

Hesab edirəm ki, bu il qonşu ölkələrlə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Mənim qonşu ölkələrin dövlət, hökumət başçıları ilə çoxsaylı görüşlərim olub. Əldə edilmiş razılaşmalar həm ikitərəfli əlaqələrimizi möhkəmləndirir, eyni zamanda regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına xidmət göstərir. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz, həmişə olduğu kimi, diqqət mərkəzindədir. Bu, bizim xarici siyasətimizin prioritet məsələlərindən biridir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal və dəyərli üzvüdür və bütün beynəlxalq təşkilatlarda, beynəlxalq tədbirlərdə biz İslam həmrəyliyini göstəririk və bunu təbliğ edirik. Təsadüfi deyil ki, keçən il bizdə "İslam həmrəyliyi ili" elan olunmuşdur. Azərbaycanda, islam aləmində birliyin, həmrəyliyin möhkəmləndirilməsi işində bizim fəaliyyətimiz müsəlman dünyasında çox yüksək qiymətləndirilir.

Ardı 2-ci səh.

# Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin yeni təyin olunmuş müavini Corc Kenti qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi.

Dövlət başçısı ABŞ Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və "Cənub qaz dəhlizi"nin rəsmi açılışı ilə bağlı göndərdiyi məktublarda Azərbaycan-ABŞ münasibətləri ilə əlaqədar ifadə etdiyi fikirlərə və xoş sözlərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı təhlükəsizlik sahəsində əməkdaşlığa toxunuldu, ölkəmizin Əfqanıstanda sülhməramlı əməliyyatlara töhfəsi və ikitərəfli əsasda Əfqanıstan hökumətinə verdiyi dəstək yüksək qiymətləndirildi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olundu, enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, ABŞ-ın "Cənub qaz dəhlizi" layihəsinə verdiyi dəstək xüsusi qeyd olundu.

Söhbət zamanı həmçinin qeyri-neft sektoru, o cümlədən ticarət, informasiya texnologiyaları, sərmayə qoyuluşu, kənd təsərrüfatı sahələrində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıldı.

# Paşinyan bu dəfə parlament çevrilişi edir

### Sarkisyan-Koçaryan birliyini sonuncu müttəfiqləri də tərk edir

**Ermənistanda növbədənkənar parlament seçkilərinin keçrilməsi ilə bağlı iqtidar və müxalifət düşərgəsi arasında yaranan ziddiyyət hələ də davam edir.**

Xatırladaq ki, baş nazir Nikol Paşinyan seçkilərin bu ilin dekabrında keçirilməsində israr edir. Amma parlamentdə çoxluğa nəzarət edən Respublika Partiyası seçkilərin gələn ilin mayında keçrilməsini istəyir. Bu fonda da baş nazirin ikinci dəfə seçilməsinə zərurət yaranacağı təqdirdə qanunvericilik orqanının buraxılmasını əngəlləməyə imkan verən qanun layihəsi qəbul edilib. Bundan sonra iqtidar və müxalifət arasında böyük ziddiyyət yaranıb.

### Hakimiyyət çəkişməsi böyüyür

Hazırda müxalifət məqsədlərinə nail olmaq üçün baş naziri repressiv metodlardan istifadədə ittiham edir. Respublika Partiyasının mətbuat katibi, parlamentin vitse-spikeri Eduard Şarmazanov vurğulayır ki, son beş ayda Paşinyan və onun tərəfdarları Ermənistanda fikir plüralizmini öldürməyə çalışırlar: "Bəzi insanlar deyir ki, Paşinyan düzgün adamdır.

Ardı 6-cı səh.



# Azərbaycan çox dəyərli, böyük hörmətə,

*Əvvəli 1-ci səh.*

İslam Əməkdaşlıq Təşkilatı bizim fəaliyyətimizi yüksək qiymətləndirir. Biz bu istiqamətdə səylərimizi davam etdiririk və etdirəcəyik. Təsadüfi deyil ki, bu il Azərbaycanın ikinci şəhəri, Bakıdan sonra bu dəfə Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı adına layiq görüldü. Biz bunu bütün müsəlman aləminin bizə olan hörmətinin təzahürü kimi qəbul edirik, qiymətləndiririk. Eyni zamanda, əlbəttə ki, bu qərar bizim islam aləmində oynadığımız müsbət rol ilə bağlıdır və biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik. İslam aləmində həmrəyliyin, birliyin möhkəmlənməsi üçün səylərimizi davam etdirəcəyik, eyni zamanda islam dəyərlərini dünyaya çatdırmaq üçün bundan sonra da addımlar atılacaqdır. Bildiyiniz kimi, Azərbaycanda multikulturalizmlə bağlı bir çox tədbirlər keçirilmişdir və həm islam aləmində, həm Avropada bizim bu səylərimiz yüksək qiymətləndirilir, bu səylərin gözəl nəticələri vardır.

Eyni zamanda, bu il bizim iştirakımızla bir neçə önəmli beynəlxalq hadisə baş vermişdir. Onların arasında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsini mən xüsusilə qeyd etmək istərdim. Hesab edirəm ki, bu, tarixi sənəddir və bu sənəddə Azərbaycanın milli maraqları tam şəkildə öz əksini tapıb. Xəzəryanı beş ölkə uzun danışıqlardan sonra razılığa gəlibdir. Yəni bu onu göstərir ki, bütün ölkələrin maraqları bu konvensiyada təmin edilib. Hesab edirəm ki, bu, bölgənin, regionun inkişafı, iqtisadi imkanlarının genişləndirilməsi üçün çox önəmli bir sənəddir, çox ciddi hüquqi sənəddir.

Bu il Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin böyük konfransı keçirilmişdir. Azərbaycan bu təşkilatda uğurla fəaliyyət göstərir və gələn ildən başlayaraq bu təşkilata, dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatına sədrlik edəcəkdir. Bakıda Qoşulmama Hərəkatının zirvə görüşü keçiriləcəkdir. Biz bu il Avropa İttifaqı ilə əlaqələrimizin inkişafı istiqamətində növbəti ciddi addım atdıq. Bu ilin yayında Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanmışdır və hesab edirəm ki, bu, çox önəmli addımdır, önəmli sənəddir. Bu sənəddə bir çox önəmli məsələlər öz əksini tapır. O cümlədən bu sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan müddəalar həm ədalətlidir, həm də bizim mövqeyimizi və maraqlarımızı tam şəkildə ifadə edir. Bu sənəddə göstərilir ki, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü Avropa İttifaqı tərəfindən dəstəklənir. Eyni zamanda NATO-nun zirvə görüşünün yekununda qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək bir daha ifadə edilmişdir. Bütün bu sənədlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində bizim mövqeyimizi daha da möhkəmləndirir. Onsuz da münaqişənin həlli üçün kifayət qədər geniş hüquqi baza vardır, eyni zamanda yeni addımlar, xüsusilə ölkəmizin suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü ilə bağlı mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri, sazişlərdə əks olunan müddəalar bizim mövqeyimizi daha da möhkəmləndirir.

Münaqişə ilə bağlı danışıqların indiki mərhələsi ictimaiyyət üçün bəllidir. Ermənistan tərəfinin cəhdləri nəticə vermədi, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır. Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır. İki ölkənin xarici işlər nazirlərinin iki görüşü bunu bir daha sübut edir. Son vaxtlar baş vermiş digər hadisələr onu göstərir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq. Ona görə biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi öz siyasətində konstruktivlik nümayiş etdirəcək və torpaqlarımız tezliklə işğalçılardan azad olunacaqdır.

Bununla yanaşı, əlbəttə ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Eyni zamanda, bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. Biz bundan sonra da ən müasir hərbi texnikanı alacağıq, yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ən müasir silahlar ölkəmizə gətirilir, onların bir hissəsi hərbi paradlarda göstərilib, bir hissəsi göstərilməyib. Demək olar ki, biz bu gün öz hərbi potensialımızı maddi-texniki təchizat baxımından tam təmin etmişik. Biz bundan sonra yalnız ən müasir texnikanı, silahları almaq fikrindəyik və bu texnikanı bizə satmaq istəyən ölkələrin sayı artır. Onsuz da bu məsələ ilə bağlı heç bir çətinlik yoxdur. Əvvəlki illərdə müqayisədə bu gün biz seçim edirik, nəinki hansısa bir təchizatçıya bağlıyıq. Ona görə biz bu gün bir çox ölkələrdən hərbi təyinatlı məhsullar alırıq.

Bu il Bakıda üçüncü müdafiə sənayesi sərgisi uğurla keçirilmişdir. Bir çox aparıcı şirkətlər öz məhsullarını nümayiş etdirmişlər. Azərbaycan öz hərbi-texniki potensialını ortaya qoydu. Bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Hərbi texnikanın, sursatların istehsalı ilə bağlı bizim yeni planlarımız var və biz onları da həyata keçirəcəyik. Bir sözlə, bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib.

Əlbəttə, bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir.

Eyni zamanda, 2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Hesab edirəm, bu ilin doqquz ayının göstəriciləri deməyə əsas verir ki, biz istədiyimizə nail oluruq. İqtisadi göstəricilərə gəldikdə isə, deməliyəm ki, bu ilin doqquz ayında bizim iqtisadiyyatımız, yəni ümumi daxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir.

Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir.

İnflyasiya cəmi 2,6 faizdir, əhalinin gəlirləri isə 9,5 faizdir. Yəni gəlirlər inflyasiyanı üstələyir. İnflyasiyanın aşağı səviyyədə olması, il ərzində daha da düşməsi göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir və makroiqtisadi vəziyyət möhkəmdir.

Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur. Sevindirici hal ondan ibarətdir ki, bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna qoyulub. Bu, iqtisadiyyatımızın bundan sonra da şaxələndirilməsinə xidmət göstərəcəkdir.

Valyuta ehtiyatlarımız artır. Bu gün bizim valyuta ehtiyatlarımız 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri biz əlavə 3 milyard dollar yığmışıq. Bu, bir daha onu göstərir ki, biz öz vəsaitimizə böyük qənaətlə yanaşırıq. Həm ölkə qarşısında duran vacib məsələləri həll edirik, investisiya layihələrini, infrastruktur layihələrini icra edirik, sosial məsələlərin həllini təmin edirik, eyni zamanda ehtiyatlarımızı da artırırıq və əminəm ki, ilin sonuna qədər daha da artacaq. Bu, bizim bundan sonra da uğurlu inkişafımız üçün çox önəmli amildir.

Doqquz ayda xarici ticarət dövriyyəsi 37 faiz artıb. İxrac da təxminən bir o qədər artıb. Bu da çox müsbət haldır. Qeyri-neft ixracı isə təxminən 14 faiz artıb. Hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Bu ilin doqquz ayında ölkəmizdə 85 min daimi iş yeri açılmışdır.

Bax budur sosial-iqtisadi inkişafımızın əsas göstəriciləri. İstənilən mötəbər beynəlxalq maliyyə qurumu bu nəticələri görərkən bir qənaətə gələ bilər ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur. Sadəcə olaraq biz gərək bu sahədə öz islahatlarımızı davam etdirək. Bu barədə bu gün danışılacaq ki, öz iqtisadi potensialımızdan maksimum istifadə edə bilək.

Əlbəttə, qeyd etdiyim kimi, ölkəmizin uğurlu inkişafı üçün yerli istehsalın artması ən önəmli amillərdən biridir. Dövlətin dəstəyi ilə bu istiqamətdə bir çox layihələr icra edilir. O cümlədən dövlətin birbaşa maliyyə dəstəyi ilə böyük, nəhəng müəssisələr yaradılır. Misal üçün, bu il polipropilen zavodunun açılışı, hesab edirəm ki, çox əlamətdar hadisədir. Bu zavodun açılışında İtaliya Prezidenti mənimlə birlikdə iştirak etmişdir. İlin sonuna qədər "SOCAR Polymer"in ikinci layihəsi - yüksəksıxlıqlı polietilen zavodu da istifadəyə veriləcək. Bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur. Əlbəttə, bizim qeyri-neft sənayemizin inkişafı üçün bu zavodların böyük əhəmiyyəti olacaq. Ölkəmizə böyük həcmdə valyuta gələcək. İlin sonuna qədər azot gübrəsi zavodu istifadəyə verilməlidir. Orada da sərmayələr yüz milyonlarla dollar həcmindədir.

Yaxın gələcəkdə Azərbaycanın Türkiyədəki "Star" neftayırma zavodu istifadəyə veriləcək. Biz bu zavoda çox böyük sərmayə - 6 milyard dollardan çox vəsait qoymuşuq. Biz oradan hər il yüz milyonlarla dollar gəlir götürəcəyik. Yəni həm ölkə daxilində, həm xaricdə qoyulan sərmayələr gələcəkdə bizə böyük xeyir gətirəcək və ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Bu il bir çox sənaye müəssisələri açılmışdır və bu proses davam etdiriləcək.



2018-ci il bizim enerji siyasətimizin inkişafı üçün önəmli il olmuşdur. Bu ilin may ayında biz Bakıda "Cənub qaz dəhlizi"nin rəsmi açılışını qeyd etdik. Bu, tarixi hadisədir. Ondan bir ay sonra Türkiyədə TANAP layihəsinin açılışını etdik və "Cənub qaz dəhlizi" layihəsi uğurla icra edilir. Bütün bu dörd layihənin hamısında çox gözəl nəticələr var. Bu il biz qaz hasilatımızı artıracağıq, artıq "Şahdəniz-2"dən qaz gəlir. Gələn il, ondan sonrakı illərdə daha da artacaq. Yəni biz tam hədəfə çatmaq üçün bütün işləri görürük və mənə verilən son məlumatlara görə, "Cənub qaz dəhlizi"nin son hissəsi olan TAP layihəsinin icrası ilə bağlı da heç bir problem yoxdur.

"Cənub qaz dəhlizi"nin uğurla başa çatması bizim üçün yeni imkanlar, yeni üfüqlər açacaq. Biz bir çox ölkələrin bazarlarına öz resurslarımızla çıxacağıq. Ondan sonra bunu nəzərə alaraq biz o ölkələrdə yeni infrastruktur layihələri icra edə bilərik. Bu barədə danışıqlar gedir və əvvəlcədən bir şey demək istəmirəm. Amma hesab edirəm ki, biz, sadəcə olaraq, digər ölkələrə qazı təchiz edən ölkə kimi yox, ondan sonra qaz təsərrüfatının idarə edilməsi ilə bağlı da məşğul olmaq istəyirik. Bu, səmərəliliyi, gəlirimizi daha da artıracaq və çalışacağımız ölkələrdə də yeni infrastruktur yaradılmasına gətirib çıxaracaq.

Əlbəttə ki, ilin doqquz ayının yekunları haqqında danışarkən Ələt Beynəlxalq Dəniz Ticarət Limanını qeyd etməmək mümkün deyil. Bu da tarixi layihədir, Xəzər dənizinin ən böyük limanıdır. Liman may ayında istifadəyə verildi. Beləliklə, "Şərq-Qərb nəqliyyat dəhlizi"nin uğurlu fəaliyyəti üçün çox önəmli infrastruktur layihəsi həyata keçirildi. Bundan sonra biz, əlbəttə ki, öz tranzit imkanlarımızı artıracağıq. Bu gün biz nəinki Şərq-Qərb, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin fəal iştirakçısıyıq. Bu dəhliz vasitəsilə göndərilən yüklərin həcmi artır. Mən bu rəqəmi səsləndirmişdim, bir daha demək istəyirəm ki, ilin əvvəlindən "Şimal-Cənub nəqliyyat dəhlizi" ilə Azərbaycan ərazisindən daşınan yüklərin həcmi yüz dəfədən çox artmışdır. Bu, hələ başlanğıcdır. Biz indi tərəfdaş ölkələrlə bu layihənin tam həyata keçirilməsi üçün çox ciddi danışıqlar aparırıq. Azərbaycanın həm texniki təcrübəsi, həm də mütəxəssisləri və maliyyə resursları var. Azərbaycan ərazisində bütün işləri biz özümüz gördük və başqa yerlərə də öz maliyyə imkanlarımızı cəlb edə bilərik ki, bu dəhliz tam gücü ilə işləsin və ölkəmizə əlavə valyuta gətirsin. Bizim əsas məqsədimiz budur. Əlbəttə ki, tranzit ölkələrin siyasi çəkisi də, siyasi imkanları da artır. Regionda əməkdaşlığın inkişafı üçün o ölkələrin rolu artır. Biz istəyirik ki, bizim rolumuz artsın. Biz istəyirik ki, Azərbaycan ilə daha çox hesablaşsınlar. Biz istəyirik ki, Azərbaycandan daha çox məsələlər asılı olsun və buna nail oluruq.

Regionda baş verən hadisələr, bizim təşəbbüsümüzlə icra edilən nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə apardığımız işlər siyasi çəkimizi böyük dərəcədə artırıb. Bu gün Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik olan bir ölkədir. Təkcə bizim yaratdığımız imkanlara görə yox, eyni zamanda, bəlkə də, ilk növbədə ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz prinsipial siyasət aparırıq. Bütün prinsipial məsələlərlə bağlı öz mövqeyimizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik.

* * *

Vergilər naziri **Mikayıl CABBAROV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli iclas iştirakçıları.

2018-ci ilin ötən 9 ayı ölkəmizdə makroiqtisadi sabitliyin, iqtisadi artımın davam etməsi və maliyyə dayanıqlığının daha da güclənməsi ilə əlamətdar olub. Ölkə iqtisadiyyatı yüksək inkişaf dinamikasını saxlamağa müvəffəq olub, mürəkkəb xarici risklər və çağırışlar şəraitində yüksək dayanıqlılıq və sabitlik nümayiş etdirib. Bu, cənab Prezident, Sizin rəhbərliyinizlə reallaşdırılan strateji inkişaf kursunun uğurla həyata keçirilməsi və iqtisadiyyatın şaxələndirilməsi siyasətinin məntiqi nəticəsidir.

Ölkə iqtisadiyyatında müşahidə olunan müsbət trendlər fonunda cari ilin 9 ayında 5 milyard 298 milyon manat həcmində proqnoza qarşı 5 milyard 306 milyon manat vergi toplanıb, proqnoza 100,2 faiz əməl olunub.

Ödənilən vergilərin 65,8 faizi qeyri-neft sektorunun payına düşür.

Eyni zamanda, ali diqqətinizə çatdırmaq istərdim ki, neft-qaz sektorunda həyata keçirilən investisiya layihələrinin aktiv fazasının başa çatması qeyri-neft sektorundan vergi daxilolmalarına təsir etsə də, qeyri-neft sektorunun digər sahələrindən daxilolmaların artması, həmçinin neft sektorundan olan artım hesabına 2018-ci ilin 9 ayında əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz və ya 81,4 milyon manat çox vəsait toplanıb.

Cari ilin 9 ayında qeyri-neft sektorunun özəl bölməsindən vergi yığımları 7 faiz artıb, onun qeyri-neft vergilərində xüsusi çəkisi ötən ilin müvafiq dövründəki 51 faizdən 59 faizə yüksəlib.

Regionların sosial-iqtisadi inkişafı konsepsiyasının uğurla həyata keçirilməsi, o cümlədən yeni iş yerlərinin açılması vergitutma bazasının genişləndirilməsi ilə nəticələnib, hesabat dövründə regionlardan vergi daxilolmaları 508,0 milyon manat təşkil etməklə, ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,0 faiz artıb. Tədiyə növləri üzrə aparılan təhlil göstərir ki, qeyri-neft sektorundan daxil olan bütün vergi növləri üzrə artım qeydə alınıb.

Cənab Prezident, Siz vergi orqanları qarşısında "kölgə iqtisadiyyatı"nın səviyyəsinin azaldılması, şəffaflığın və bərabərliyin təmin edilməsi, vergi mədəniyyətinin yüksəldilməsi kimi mühüm tapşırıqlar qoymusunuz.

Bunlardan ən önəmlisi, sahibkarlıq fəaliyyətinin şəffaflığı problemidir. Azərbaycanda yaradılmış əlverişli iqtisadi mühit, böyük daxili istehlak bazarının mövcudluğu, ixracın təşviqi üçün görülən tədbirlər insanları sahibkarlıq fəaliyyətinə stimullaşdırır. Lakin bu sahədə hələ də uçotsuz fəaliyyət, qeyri-rəsmi məşğulluq, real dövriyyənin gizlədilməsi və vergidən yayınma cəhdlərinin geniş yayıldığı ilə qarşılaşırıq.

Bu kimi halların qarşısının alınması olduqca vacibdir. Təkcə ona görə yox ki, bu, vergi yığımı üçün böyük potensialdır və büdcə gəlirlərinin artırılması üçün olduqca əhəmiyyətlidir. Həm də ona görə ki, qanunauyğun fəaliyyət göstərən vergiödəyicilərinin mənafeləri bu haqsız rəqabətə uduzmasın. Bu fəaliyyətin həm dövlət, həm vətəndaş üçün faydalı olmasının əsas şərti hər kəsin qanun qarşısında bərabər olmasıdır.

Sadələşdirilmiş verginin əhatə dairəsinin hər il genişləndirilməsinin təhlili nəticəsində müəyyən edilib ki, verilən bu dəstəkdən sui-istifadə hallarının sayı artır. Kifayət qədər dövriyyəyə malik, böyük əməliyyatlar aparan bir sıra iri vergiödəyiciləri tərəfindən dövriyyələrin "parçalanması", müxtəlif yollarla sadələşdirilmiş vergitutma rejimində qalmaqla vergidən yayınmaq üçün cəhdlər edilir.

Ayrı-ayrı sahələrin inkişafı üçün tətbiq olunan vergi güzəştlərinin əhəmiyyəti danılmazdır, lakin istehsalçılarda gəlir və xərclərin uçotunun olmadığı bir şəraitə bu, məhsulları satış məqsədləri üçün əldə edən üçüncü şəxslərin vergidən yayınmaları üçün əlavə imkanlar yaradır.

Əlbəttə, vergiödəyicilərinin fəaliyyətində uçot sisteminin zəifləməsində müəyyən qədər vergi orqanlarının da payı olub. Vergiödəyicilərini öz təsərrüfat fəaliyyətinin nəticələrinin hesablanmasının gəlir və xərclər üzərində deyil, ən asan üsulla - dövriyyənin hesablanmasına yönəldilməsi, bunun nəticəsində audit institutunun əhəmiyyətini itirməsi, vergiödəyicilərindən ödənilməli olan vergi məbləğindən artıq ödəmələrin həcminin ilbəil artması, özəl biznesə qarşı qəbuledilməz metodların tətbiqi kimi xoşagəlməz halları qeyd etmək olar. Nəticə etibarilə illərlə yaranmış artıq ödəmələr cari ilin vergi proqnozunun icrasında obyektiv çətinliklər yaradır.

Uzun müddət formalaşmış vergi ödəmə vərdişlərinin dəyişdirilməsi çətin, lakin həllini tələb edən prosesdir. Vergi administrasiyası bu istiqamətdə öz fəaliyyətinin vergi mühitinin şəffaf, bərabər, hamı üçün eyni və əvvəlcədən təxmin edilən prinsiplər əsasında qurulmasını davam etdirəcək.

Cari ildə göstərilən problemlərin həlli, vergitutma bazasının genişləndirilməsi, biznesin açıq və şəffaf fəaliyyətinin təmin edilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Nazirlik tərəfindən vergiödəyiciləri ilə şəffaf münasibətlərin qurulmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi hesabına qeyri-neft sektorunda dövriyyələr 7,1 faiz artaraq 44 milyard manatı ötüb. Ticarətdə dövriyyə 18,4 faiz, o cümlədən pərakəndə ticarət dövriyyəsi 27,9 faiz artıb. Bu dinamika şəffaflaşmanın erkən əlamətləri kimi qəbul edilə bilər. Vergiödəyicilərinə öz uçot sənədləşmə işlərini qaydaya salmağa imkan yaratmaq üçün səyyar vergi yoxlamalarının sayı 3 dəfə azaldılıb.

Zati-aliləriniz tərəfindən Vergilər Nazirliyi ilə Dövlət Gömrük Komitəsinin fəaliyyətinin daha sıx əlaqələndirilməsi məqsədilə bu ilin aprel və iyun aylarında imzalanmış sərəncamlara ayrıca toxunmaq istərdim.

Dövlət Gömrük Komitəsi ilə birlikdə idxal-ixrac əməliyyatlarına effektiv nəzarət sisteminin qurulması istiqamətində tədbirlər həyata keçirilir. Xüsusi olaraq, Vahid Risk Platformasının tətbiqini qeyd etmək istərdim. Bu sahədə rastlaşdığımız əsas problemlərdən biri üçüncü şəxslər üçün malları idxal edən vergiödəyiciləri ilə bağlı idi. Düzdür, bəzi məsələlərin həllini hələlik başa çatdıra bilməmişik. Oktyabrın 5-də hər iki qurumun keçirdiyi birgə kollegiya iclasında açıq qalan məsələlərin həlli yolları müzakirə edildi. Ümidvarıq ki, Dövlət Gömrük Komitəsi ilə birlikdə bu işləri cari ilin sonuna qədər yekunlaşdıra biləcəyik. Hesab edirik ki, həyata keçirilən tədbirlərin çox müsbət fiskal nəticələri olacaq.

Tapşırığınıza uyğun olaraq, aksizli malların dövriyyəsinə vergi nəzarəti gücləndirilib, ən iri 30 istehsalçıda cari ilin avqustun 1-dən aksiz postları qurulub. Bir məhsul növünün adı altında faktiki olaraq digərinin istehsalının, saxta aksiz markalarından istifadənin və aksiz markası olmadan məhsul satışının qarşısı alınıb. Nəticədə, araq istehsalı və daxili bazarda satış həcmi cari ilin ötən dövrü ilə müqayisədə avqust və sentyabr ayları üzrə orta hesabla 3 dəfə artıb.

Aksizsiz tütün məhsullarının daxili bazarda satışının qarşısının alınması, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində keçirilən tədbirlər nəticəsində daxili bazarda qaçaq malın payı cari ilin əvvəlindəki 19 faizdən 3 faizə enib. İlin əvvəlindən dövlətin nəfinə müsadirə olunan və təhvil verilən tütün məmulatlarının dəyəri 13 milyon manatdan çoxdur. Qanunsuz olaraq daxili bazara yol tapmış tütün məhsullarının müsadirə edilərək satışdan çıxarılması nəticəsində yerli məhsulların istehsalında canlanma yaranıb. Belə ki, yerli istehsalçıların daxili bazarda satış həcmi ötən ilin yanvar-avqust ayları ilə müqayisədə cari ilin müvafiq dövründə 75 faiz artıb.

2018-ci ilin 9 ayı ərzində vergi ödəməkdən yayınma faktları üzrə istintaq olunan cinayət işləri üzrə vurulmuş ziyandan 17,6 milyon manat məbləğin ödətdirilməsi təmin edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 25 faiz çoxdur.

Prioritetlərimiz sırasında vergiödəyicilərindən daxil olan şikayətlərin baxılması işinin təkmilləşdirilməsi və rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsini qeyd etmək istərdim.

Qarşımıza qoyduğunuz tələblərə əsasən, vergi administrasiyasının açıq və şəffaf fəaliyyəti istiqamətində proses davam etdirilir. Vergi orqanı ilə vergiödəyicisi arasında qarşılıqlı inam atmosferinin yaradılması, vergilərin könüllü ödənilməsinə keçidin təmin edilməsi üçün bütün qüvvələr səfərbər olunub.

Vergilər Nazirliyi vergiödəyiciləri ilə münasibətdə insan faktorunun rolunu minimuma endirmək məqsədilə, vergi nəzarəti proseslərinin avtomatlaşdırılmasına çalışır. Blokçeyn texnologiyası əsasında qurulmuş həllər daxil olmaqla, qərəzsiz və dəqiq təhlil-qeydiyyat sistemlərinin tətbiqi istiqamətində işlərə başlanıb. Vergiödəyicilərinin fəaliyyətinin risk modulları üzərindən təhlil olunması, vergidən yayınma hallarının müasir texnologiyalara əsaslanaraq aşkar edilməsi, vergi nəzarəti metodlarının təhlil olunmuş məlumatlar əsasında seçilməsi ilə auditin real funksiyalarının bərpası istiqamətində işlər gücləndirilib.

Aparılan islahatların daha bir mühüm qolu vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlıdır. Cari il ərzində sahibkarların ictimai təşkilatları və konsaltinq şirkətləri ilə sıx təmaslarımız olub. Bu görüşlərdə biz sahibkarları narahat edən məsələləri, onları öz fəaliyyətlərini daha da genişləndirmək üçün maraqlandıran təşviqedici mexanizmləri müzakirə etmişik.

Nəticədə Vergi Məcəlləsinə hazırlanmış dəyişikliklər paketi özündə bir neçə mühüm istiqaməti əhatə edir. Bunlar vergidən yayınmanın və kölgə iqtisadiyyatının miqyasının azaldılması, iqtisadi artımın və sahibkarlığın effektiv dəstəklənməsi, vergitutma rejiminin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi, inzibatçılığın və nəzarətin gücləndirilməsindən ibarətdir.

Cənab Prezident, bu dəyişikliklər sırasında digər orqanlarla elektron məlumat mübadiləsinin genişləndirilməsi məsələləri ilə bağlı Sizin dəstəyinizə ehtiyacımız var. Bu məlumatlara çıxış vergiödəyicilərinə keyfiyyətli xidmətin göstərilməsi ilə yanaşı, fəaliyyətimizi daha da məhsuldar edəcək.

Vergitutma bazasının genişləndirilməsi və sahibkarlıq subyektlərinin fəaliyyət dairəsinin müəyyən edilməsi nəticəsində sadələşdirilmiş verginin sırf kiçik sahibkarlığın istifadə edəcəyi bir vergi növü kimi qalmasına şərait yaradılacaq.

Sahibkarlığın inkişafının dəstəklənməsi və biznesin aparılmasının əlverişliliyinin artırılması məqsədilə sadələşdirilmiş verginin dərəcəsinin endirilməsi, pərakəndə ticarət və iaşədə nağdsız ödənişlər üzrə müddətli vergi güzəştlərinin verilməsi, gəlir və xərcin uçotunu aparan kiçik sahibkarların dividend gəlirlərinin vergidən azad olunması, vergiödəyiciləri tərəfindən çəkilən qeyri-kommersiya xərclərinin, o cümlədən səhiyyə, təhsil, mədəniyyət və idman sahələrinə ayrılmış ianələrin müəyyən hissəsinin gəlirdən çıxılması kimi təkliflər edilib.

Tapşırığınıza əsasən, əməkhaqqının üzərinə düşən fiskal yükünün azaldılması islahatı hazırladığımız dəyişikliklər sırasında xüsusi yer tutur.

Bir çox hallarda əməkhaqqı üzrə sosial sığorta və vergi yükünün yüksək olması sahibkarları qeyri-rəsmi əməkhaqqı ödənilməsi praktikasına sövq edir. Bu vəziyyət "kölgə iqtisadiyyatı"nın genişlənməsinin əsas səbəblərindən biridir. İnzibati tədbirlərin görülməsinə baxmayaraq, bu məsələ problem olaraq qalmaqdadır.

İslahatın başlıca məqsədi mövcud əmək münasibətlərinin rəsmiləşdirilməsi, qeyri-neft sektorunun inkişafına əlavə təkan verilməsi və yeni iş yerlərinin açılması üçün sahibkarlarda iqtisadi motivasiyanın yaradılmasıdır. Bu məqsədlə qeyri-neft sektorunda əməkhaqqı ilə əlaqəli olan ödənişlər üçün uzunmüddətli vergi güzəşti və vahid inzibatçılığın tətbiqi təklif olunur.

Güman edirik ki, islahat nəticəsində qeyri-rəsmi məşğulluğun səviyyəsi azalacaq və sahibkarların əmək münasibətlərini rəsmiləşdirməsinə iqtisadi marağı artacaq. Bu proses iqtisadi artıma da öz müsbət təsirini göstərəcək.

Vergi sahəsində aparılan islahatlar, biznes mühitinin cəlbediciliyinin artırılması üçün həyata keçirilən tədbirlər, informasiya texnologiyalarına əsaslanan vergi inzibatçılığının formalaşdırılması sahibkarlığın inkişafına, ölkəmizin tərəqqisi naminə biznes və vergi orqanlarının səmərəli əməkdaşlığına öz töhfəsini verəcək.

Möhtərəm cənab Prezident.

Çıxışımın sonunda icazə verin, Sizi əmin edim ki, Vergilər Nazirliyinin beynəlxalq standartlara cavab verən struktura çevrilməsi istiqamətində qarşımıza qoyduğunuz vəzifələrin icrasının təmin olunması üçün vergi əməkdaşları bütün səy və imkanlarını səfərbər edəcəklər.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri **Ramin QULUZADƏ** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli iclas iştirakçıları.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezident, Sizin rəhbərliyinizlə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində digər sahələr kimi nəqliyyat, rabitə və yüksək texnologiyalar sahələri də uğurla inkişaf etməkdədir. Sizin 2018-ci il 12 yanvar tarixli fərmanınızla təsdiq olunan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Əsasnaməsi, eləcə də Dövlət Dəniz və Dövlət Mülki Aviasiya administrasiyalarının nazirliyə birləşdirilməsi bu sahədə effektiv dövlət idarəetməsinin və dövlət siyasətinin həyata keçirilməsinə böyük imkan yaradır.

# yüksək beynəlxalq nüfuza malik ölkədir



Cənab Prezident.

Dünyada ən dinamik inkişaf edən informasiya-kommunikasiya texnologiyaları sahəsi respublikamızda da prioritet sahə olmaqla, daim diqqət və qayğınızla əhatə edilib. Sizin tərəfinizdən təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da və "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə sahənin inkişafı ilə bağlı konkret hədəflər müəyyən edilib. Bu istiqamətdə nazirlik tərəfindən bir çox işlər görülüb və layihələr həyata keçirilib.

Nazirliyin əsas fəaliyyət istiqamətlərindən olan telekommunikasiya sahəsində yeni texnologiyaların tətbiqi, xidmət şəbəkəsinin müasir standartlara uyğunlaşdırılması və yeni xidmətlərin göstərilməsi üzrə müvafiq işlər aparılır. Bu istiqamətdə regionların telekommunikasiya şəbəkəsində yeni texnologiyaların tətbiqi üzrə Şimal, Qərb və Cənub istiqamətlərində irimiqyaslı layihənin icrasına başlanılıb. Layihə çərçivəsində quraşdırılacaq yeni stansiyalar bir milyon istifadəçini müasir telekommunikasiya xidmətləri ilə təmin edəcək.

Bakı şəhərində bir xətt üzərindən üç xidmət - telefon, internet və televiziya xidmətlərinin göstərilməsini təmin edən GPON və yeni simsiz rabitə texnologiyalarına əsaslanan LTE layihələri həyata keçirilir. Bu layihələr nəticəsində ilin sonunadək 42 mindən çox abunəçi sabit genişzolaqlı şəbəkəyə qoşulacaq.

Görülən işlər nəticəsində ölkə əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir. Əhalinin və turistlərin ictimai yerlərdə internetə daha rahat çıxışını təmin etmək üçün Bakının 20 parkında "İctimai WiFi" istifadəyə verilib.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin 9 ayı ərzində İKT sektoru üzrə investisiya qoyuluşu 69 faiz artaraq 225 milyon manat olub. Sektorun gəlirləri isə 1,1 milyard manatdan 1,2 milyard manata yüksəlib, gəlirlərin artım tempi isə 7,7 faiz təşkil edib.

Dünya İqtisadi Forumunun 2017-2018-ci il hesabatına əsasən Azərbaycan internet istifadəçilərinin faizinə görə dünyanın 137 ölkəsi arasında 34-cü yerdədir. Ölkəmiz bu göstərici üzrə dünyanın orta göstəricisindən 1,7 dəfə, MDB ölkələrinin orta göstəricisindən isə 1,2 dəfə öndədir.

Qeyd etmək lazımdır ki, hesabat dövrü ərzində ölkəmizdə beynəlxalq internet kanallarının ümumi tutumu 820 qeqabitədək artırılıb. Ali diqqətinizə çatdırmaq istəyirəm ki, beynəlxalq səs trafikinin etibarlığını və təhlükəsizliyini təmin etmək məqsədilə cari ildən etibarən Beynəlxalq Telefon Stansiyasının üç ehtiyat sistemi istismara verilib.

Möhtərəm cənab Prezident.

Azərbaycanın təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən yeni fiber-optik magistralın yaradılmasını nəzərdə tutan Trans-Avrasiya Super İnformasiya Magistralı - TASİM layihəsi üzrə müvafiq danışıqlar davam etdirilir. TASİM Konsorsiumuna daxil olan dövlətlərin operatorları arasında layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması ilə bağlı artıq protokol imzalanıb.

İKT-nin geniş tətbiqi, informasiya mübadiləsinin həcminin artması, məlumatların vahid mərkəzdə və təhlükəsiz saxlanması ölkədə Data Mərkəzin yaradılmasını zəruri edib. Sevindirici haldır ki, regionun ən təhlükəsiz və müasir standartlara cavab verən Data Mərkəzi Azərbaycanda qurulub. Data Mərkəzi beynəlxalq səviyyədə qəbul edilən TIER III yüksək təhlükəsizlik standartlarına cavab verir. Mövcud Data Mərkəzdəki məlumatların qorunma təhlükəsizliyini artırmaq məqsədilə Yevlax şəhərində Ehtiyat Data Mərkəzinin tikintisinə başlanılıb.

Ölkəmizdə "Açıq Hökumət Məlumatları"nın geniş tətbiqinə başlanılıb və Açıq Hökumət Məlumatları Portalı yaradılıb. Hesabat dövründə portalda olan açıq məlumatların sayı 655-ə çatdırılıb.

Elektron mühitin inkişafında önəmli rolu olan elektron imzadan istifadənin genişlənməsi ilə yanaşı, imzaların dövlətlərarası qarşılıqlı tanınması istiqamətində işlər aparılır. Cari ildə Türkiyə Respublikası ilə elektron imza sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Vətəndaşların telekommunikasiya, poçt və digər xidmətlərlə daha keyfiyyətli təmin olunması məqsədilə "Şəbəkə" xidmət mərkəzləri yaradılır. Hesabat dövründə 7 yeni Şəbəkə xidmət mərkəzi istifadəyə verilərək Bakıda və regionlarda onların sayı 10-a çatdırılıb. Gələcəkdə bu layihə davamlı olaraq həyata keçiriləcək. Telekommunikasiya və poçt sahəsində vətəndaşların müraciətlərini operativ və keyfiyyətli cavablandırmaq üçün yeni vahid Çağrı Mərkəzi yaradılıb.

Azərbaycan Poçtu beynəlxalq tranzit poçt mərkəzi kimi fəaliyyət göstərməyə başlayıb. Layihə çərçivəsində Çindən sifariş olunan elektron ticarət məhsulları Azərbaycana gətirilir və Azərpoçt tərəfindən tranzit poçt kimi emal olunaraq artıq dünyanın 20-dək ölkəsinə çatdırılır. Poçt daşımaları "Silk Way" və "Azal" aviaşirkətləri vasitəsilə həyata keçirilir.

Keyfiyyətin və əhatə dairəsinin genişləndirilməsi məqsədilə ölkəmizin bütün ərazisində televiziya yayımı tam olaraq rəqəmli rejimə keçirilib. Bununla da Beynəlxalq Telekommunikasiya İttifaqının bu sahədə müəyyən etdiyi öhdəlik yerinə yetirilib. Bakıda və Abşeron yarımadasında televiziya və radio proqramlarının keyfiyyətli və fasiləsiz yayımının təşkili üçün hesabat dövründə yeni alternativ "Gənclik" teleqülləsi istifadəyə verilib.

Cənab Prezident, fəaliyyətimizin əsas istiqamətlərindən biri də İKT sahəsinə marağı artırmaq və gənclərin innovativ ideyalarının biznesə çevrilməsinə dəstək verməkdir. Nazirliyin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu bu məqsədlə keçirdiyi 6 müsabiqə üzrə ümumilikdə 117 layihəyə qrant ayırıb. Eyni zamanda, fondun vəsaiti hesabına sahibkarlıq subyektlərinə güzəştli kreditlər verilir.

Sizin və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında müasir standartlara cavab verən yeni İnnovasiya Mərkəzinin yaradılması ilə bağlı işlərə start verilib. Mingəçevir Yüksək Texnologiyalar parkında isə kompüter avadanlıqlarının istehsalı üzrə layihə icra olunmaqdadır.

Azərbaycan 2001-ci ildən etibarən Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin üzvüdür. Ölkəmizdə regionun ilk nüvə sterilizasiya qurğusu yaradılıb. Bu qurğu tibbi ləvazimatların, ərzaq məhsullarının, kənd təsərrüfatı məhsullarının dünya praktikasında mövcud olan ən təhlükəsiz şəkildə sterilizasiya edilməsinə imkan verir.

Cənab Prezident.

Sizin təşəbbüsünüz və dəstəyinizlə həyata keçirilən nəhəng regional layihələr ölkəmizin nəqliyyat qovşağına çevrilməsinə, tranzit potensialının güclənməsinə xidmət edir. Bu il mayın 14-də açılışı olmuş yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizi hövzəsində ən böyük liman kompleksi olmaqla, bölgənin əhəmiyyətli tranzit nöqtəsinə çevrilib.

Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması, habelə gəmilərin standartlara uyğunluğunun yoxlanması, dəniz üzgüçülüyünün təhlükəsizliyi və liman nəzarətinin həyata keçirilməsinin təkmilləşdirilməsi ilə bağlı işlər aparılmaqdadır.

Qeyd edim ki, 2017-2018-ci illərdə hava, avtomobil, su, dəmir yolu nəqliyyatı sahəsində 12 ölkə ilə 15 saziş və memorandum imzalanıb. Beynəlxalq sərnişindaşıma ilə bağlı 25 istiqamət üzrə müntəzəm beynəlxalq marşrut rəsmiləşdirilib. Avtomobil nəqliyyatı sahəsində sərnişin və yükdaşımalar üzrə tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

Ümumilikdə nəqliyyat sektoru üzrə artım tempi ötən 9 ay ərzində 1,3 faiz olub.

Cənab Prezident, Sizin diqqət və qayğınızla mülki aviasiya sahəsində böyük uğurlar əldə olunub. Hazırda Azərbaycanda müasir standartlara cavab verən 6 beynəlxalq hava limanı fəaliyyət göstərir.

Regionda alternativi olmayan Avropa və Asiya Arasında Hava Axınlarının Optimallaşdırılması Mərkəzi bu il istifadəyə verilib. Məhz bu üstünlüyə görə xarici aviaşirkətlər hər hansı məcburi eniş zərurəti yaranarkən bizim hava limanından istifadə edirlər.

Aviasiya təhlükəsizliyi üzrə qəbul edilmiş Dövlət Proqramının icrası uğurla həyata keçirilir. Azərbaycan uçuşların təhlükəsizliyi üzrə ən yüksək 1-ci kateqoriya statusunu bu il yenidən saxlayıb. Heydər Əliyev Beynəlxalq Hava Limanı bu il 5 ulduz statusu ilə dünyanın ən möhtəşəm hava limanları siyahısına daxil edilib.

Möhtərəm cənab Prezident.

Sonda fürsətdən istifadə edərək sahənin inkişafına göstərdiyiniz diqqət və qayğıya görə Sizə öz minnətdarlığımızı bildiririk.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri **Vidadi MURADOV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli iclas iştirakçıları.

Dövlətimizin ən çox diqqət yetirdiyi sahələrdən biri də tariximizin və milli mədəniyyətimizin mühüm göstəricisi olan xalçaçılıqdır. Bu sahədə ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji kurs Sizin rəhbərliyinizlə uğurla davam etdirilir.

Cənab Prezident, Sizin proqram xarakterli çıxışlarınızda xüsusi olaraq vurğulanıb ki, xalçaçılıq bizim milli sənətimizdir, eyni zamanda, xarici bazarlara çıxışı olan məhsuldur, ölkəmizə valyuta gətirən, işsizliyi, xüsusilə qadınlar arasında işsizliyi aradan qaldıran sahədir.

Xalçaçılığın çox böyük potensialı var. Dövlət vəsait ayırıb, bütün xalça fabrikləri dövlət hesabına tikilir, bütün avadanlıqlar dövlət vəsaiti hesabına alınır. Biz bütün istehsal zəncirini ardıcıllıqla yaratmalıyıq. Sizin xalçaçılığın inkişafı ilə bağlı imzaladığınız sərəncamlar, "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" ölkəmizdə ənənəvi xalq üsulu ilə kütləvi xalça istehsalını, onun qeyri-neft sektorunun aparıcı sahəsinə çevrilməsini təmin edir.

Milli mədəniyyətimizin inkişafında böyük rolu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva xalçaçılığın yaşadılmasına öz dəyərli töhfələrini verib. Xalçaçıların problemlərinin aradan qaldırılmasında, onların fəaliyyət imkanlarının genişləndirilməsində, nailiyyətlərinin beynəlxalq miqyasda təbliğində Mehriban xanım Əliyevanın xidmətləri misilsizdir. Onun təşəbbüsü ilə Azərbaycan xalçaçılıq sənəti UNESCO-nun Qeyri-maddi mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin V sessiyasında UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsinin nümunələri siyahısına daxil edilib.

Zati-aliləri, Sizin 2016-cı il 5 may tarixli sərəncamınızla yaradılan "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti 2016-2017-ci illərdə Füzuli, Ağdam, Şəmkir, Tovuz, Ağstafa, Qazax, İsmayıllı, Qəbələ, Quba və Xaçmaz rayonlarında filiallar yaradıb. Bu filialların hər birində 150 nəfər toxucunun, 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması üçün müasir iş şəraiti yaradılıb, Azərbaycanda istehsal edilmiş 43 dəzgah quraşdırılıb və hazırda milli və orijinal çeşnilər əsasında xalçalar toxunur.

Ümumi sayı 900 nəfərə yaxın olan toxucularımızın əksəriyyəti gənclərdir. Filialların stabil fəaliyyətinin təmin olunması üçün Sizin müvafiq sərəncamınızla ayrılmış 2 milyon manat vəsaitlə "Hyundai" markalı 18 avtobus da alınıb.

Filiallarda indiyədək Azərbaycan xalçalarının Bakı, Qarabağ, İrəvan, Naxçıvan, Quba, Gəncə, Şirvan, Qazax-Borçalı, Təbriz qrupları üzrə 1330 ədəd, 4401 kvadratmetr xalça toxunub. Yerli və xarici bazarlarda "Azərbaycan brendi" olaraq 287 ədəd, 853 kvadratmetr xalça satılıb.

Tapşırığınıza uyğun olaraq, Azərbaycan xalçaçılığının inkişafı ilə bağlı həyata keçirilən işlərə İqtisadiyyat Nazirliyi tərəfindən lazımi kömək göstərilir, dəstək verilir. Bu il Sizin sərəncamlarınızla "Azərxalça"nın daha 10 filialının yaradılması üçün vəsait ayrılıb. 2018-ci ilin əvvəlindən Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsində, Naxçıvan şəhərində, Abşeron rayonunun Qobu qəsəbəsində, Qobustan, Şabran, Lənkəran, Kürdəmir, Tərtər, Goranboy rayonlarında, Biləsuvar rayonunda Cəbrayıl rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı qəsəbədə filial binalarının tikintisinə başlanılıb. Lənkəran filialının tikintisi artıq başa çatdırılıb, burada 116 nəfər işlə təmin olunub. Digər filial binalarının tikintisi isə bu ilin sonunadək başa çatdırılacaq. Həmçinin 20 emalatxana binasının tikintisi, infrastrukturunun yaradılması, avadanlıq və dəzgahlarla təchizatı üçün "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə Azərbaycan Respublikasının dövlət büdcəsində investisiya xərcləri üçün nəzərdə tutulan vəsaitdən 37 milyon 475 min manat vəsait ayrılıb.

Şirvan bölgəsinin tarixi xalçaçılıq ənənələrinə malik İsmayıllı rayonunda güclü kadr potensialını nəzərə alaraq imzaladığınız 2018-ci il 27 avqust tarixli sərəncamınızla İsmayıllıda yeni xalça istehsalı emalatxanasının tikintisinə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 2 milyon 400 min manat vəsait yönəldilib. Hazırda tikinti-inşaat işlərinin aparılması üçün hazırlıq işlərinə başlanılıb.

2019-cu ildə Bakı şəhərinin Qaradağ rayonunda, Gəncə, Mingəçevir, Şəki şəhərlərində, Xızı, Masallı, Zaqatala, Bərdə rayonlarında, Ağcabədi rayonunda Laçın rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Taxtakörpü qəsəbəsində, Goranboy rayonunda Xocalı rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Aşağı Ağcakənd qəsəbəsində xalça istehsalı emalatxanaları yaradılacaq. Bunun üçün yerli icra hakimiyyəti orqanları ilə birlikdə müvafiq tədbirlər həyata keçirilir, tikinti işlərinin aparılması üçün ərazilər müəyyənləşdirilir.

Cəmiyyətin fəaliyyət istiqamətlərindən biri də xalçaçılığın yerli potensiala əsaslanan xammal bazasının yaradılmasıdır. Bu məqsədlə Sumqayıt Kimya Sənaye Parkında Yunəyirici-Boyaq Fabrikinin tikintisinə başlanılıb. Türkiyə, Fransa və İtaliya istehsalı olan avadanlıqlarla təchiz ediləcək fabrik son illərin böyük miqyaslı iqtisadi layihələrindən biridir. Bu müəssisədə təmiz yun, yun iplik, təbii və kimyəvi boyaq maddələri hazırlanacaq. Fabrikin fəaliyyəti nəticəsində, ilk növbədə, "Azərxalça"nın filiallarının, özəl xalçaçılıq müəssisələrinin yun ipliyə olan tələbatı ödəniləcək, idxaldan asılılıq tamamilə aradan qaldırılacaq. Yunəyirici-Boyaq Fabrikinin xammalla təmin olunması məqsədilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə rayonlarında, Sabirabad Sənaye Məhəlləsində regional yun və boyaq bitkilərinin tədarükü məntəqələri də yaradılır.

2019-cu ildə də bu istiqamətdə görülən işlər davam etdiriləcək, Şəki şəhərində, Masallı və Hacıqabul rayonlarındakı sənaye məhəllələrində daha üç regional tədarük məntəqəsi yaradılacaq. Müasir texniki avadanlıqlarla təmin ediləcək bu məntəqələrdə il ərzində 1500 ton yun və boyaq bitkiləri xammalı toplanılacaq.

Azərbaycan Respublikasının dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulmuş vəsaitdən Yunəyirici-Boyaq Fabrikinin tikintisi və avadanlıqlarla təchizatı üçün 27 milyon 420 min manat, regional yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin yaradılması məqsədilə 6 milyon 500 min manat ayrılıb.

ASC-nin istehsalı olan xalçaların satışa çıxarılması prosesinin intensivləşdirilməsi məqsədilə 2019-cu ildə Sumqayıt Kimya Sənaye Parkında Hazır Xalçaların Emal Mərkəzi də inşa ediləcək.

"Azərxalça" respublikanın rayonlarında xalçaçılıq üzrə tədris-hazırlıq kursları təşkil edir. Kurslara cəlb olunanların əksəriyyəti gənclərdir. Tədrisi uğurla başa vuran toxuculara sertifikat verilir və onlar filiallarda daimi işlə təmin olunurlar. Eyni zamanda, xalçaçı-rəssamlar, yun və boyaq bitkilərinin tədarükü və emalı, hazır xalçaların emalı, xalça ticarəti və xalçaçılığın inkişafı üçün vacib olan digər istiqamətlər üzrə mütəxəssislər də hazırlanır.

Bu il sentyabr ayının 18-də Masallı Sənaye Məhəlləsinin açılışı zamanı verdiyiniz tapşırığa uyğun olaraq təşkil edilmiş tədris mərkəzinə tərəfinizdən baxış keçirilib, dəyərli tövsiyələr verilib.

2019-cu ilin sonunadək "Azərxalça"nın istehsal, tədarük və emal müəssisələrinin yaradılması ilə 5 mindən çox vətəndaş iş yeri ilə təmin ediləcək.

2017-2018-ci illərdə "Azərxalça"nın istehsalı olan xalçalar Rusiya, Amerika Birləşmiş Ştatları, Almaniya kimi ölkələrdə keçirilən beynəlxalq xalça satış-sərgilərində təqdim olunub. İndi Avropanın, Amerika Birləşmiş Ştatlarının, Yaponiyanın, Rusiyanın böyük xalça şirkətləri ilə danışıqlar aparılır, əməkdaşlıq haqqında müqavilələr hazırlanır. Bu müqavilələr əsasında həm hazır xalçalar satılacaq, həm də sifarişlərlə müxtəlifölçülü xalçaların toxunmasına başlanılacaq.

Cənab Prezident.

Sizin diqqət və qayğınız sayəsində "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti ölkəmizin əsas xalçaçılıq mərkəzi kimi öz fəaliyyətini uğurla davam etdirir. İcazə verin, Azərbaycan xalçaçılıq sənətinə göstərdiyiniz böyük diqqət və qayğıya görə ölkəmizin bütün xalçaçıları adından Sizə öz dərin minnətdarlığımı bildirim. Sizi əmin edirik ki, Azərbaycan xalçaçıları xalçaçılığımızın inkişafı üçün bundan sonra da böyük səylə çalışacaq və etimadınızı doğruldacaqlar.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Dövlət başçısı iclasda yekun nitqi söylədi.

## Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

- İlin sonuna üç aydan az vaxt qalır. Əminəm ki, biz ilin sonuna qədər nəzərdə tutduğumuz bütün işləri görəcəyik, o cümlədən Dövlət İnvestisiya Proqramı tam icra ediləcəkdir. Mənə bu yaxınlarda məruzə edildi, Dövlət İnvestisiya Proqramının icrası ilə bağlı vəziyyət yaxşıdır. Cədvəl üzrə nəzərdə tutulmuş bütün layihələr icra edilir.

Bir neçə ay bundan əvvəl biz büdcəyə dəyişiklik etdik. Çünki əlavə vəsait daxil edildi. Hesab etdik ki, bu il görülə biləcək işlərin icrası üçün əlavə vəsait ayıraq, o cümlədən sosial məsələlərin həlli üçün. Dürüstləşmə edildi və büdcəmizin həcmi artırıldı. Bu, özlüyündə bir göstəricidir, onu göstərir ki, bizim maliyyə vəziyyətimiz daha da yaxşılaşır. Elə imkanlar yaranıb ki, biz il ərzində büdcəyə dəyişiklik edərək büdcəmizin həcmini artıra bilərik. Dünya miqyasında belə hallara çox da tez-tez rast gəlinmir. Azərbaycan iqtisadiyyatı istənilən dövrdə öz dayanıqlılığını nümayiş etdirir. Hətta bir neçə il bundan əvvəl dünyanı bürümüş maliyyə-iqtisadi böhranının ikinci dalğası dövründə də Azərbaycan iqtisadiyyatı dayanıqlılığını təmin etmişdir.

Gələn ilin büdcəsi ilə bağlı ilkin məruzələr edildi. Gələn ilin büdcəsi həm investisiyayönümlü, həm də sosialyönümlü olacaqdır. Bütün sosial layihələr icra ediləcək. Eyni zamanda, dövlət kapital qoyuluşu üçün kifayət qədər vəsait də nəzərdə tutulur. Əsas məsələ ondan ibarətdir ki, biz bu vəsaitdən səmərəli şəkildə istifadə edək, ölkə qarşısında duran əsas məsələlərin həllini təmin edək, prioritetləri düzgün seçək. Dövlət İnvestisiya Proqramımız iqtisadiyyatın real sektoruna xidmət göstərməlidir, eyni zamanda, bugünə qədər öz həllini tapmayan infrastruktur layihələrinin icrasına da istiqamətləndirilməlidir.

Bu il iqtisadi sahədə köklü islahatlar davam etdirilir. Biz bu islahatların nəticələrini görürük. Xüsusilə vergi və gömrük sistemində aparılan islahatlar böyük dəyişikliyə, müsbətə doğru dəyişikliklərə səbəb olur. İslahatlar davam etdirilməlidir. Bu gün sahibkarları, ictimaiyyəti narahat edən vergi və gömrük sahəsində işlərlə, məsələlərlə bağlı bütün lazımi addımlar atılmalıdır ki, bu xoşagəlməz hallara son qoyulsun.

Gömrük orqanları bu il 800 milyon manatdan çox əlavə vəsait toplamışlar. Mən bunu yüksək qiymətləndirirəm. Əminəm ki, ilin sonuna qədər bu məbləğ daha da artacaq. Bu, onu göstərir ki, ilk növbədə, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, idxal artır və idxalın artımı da sənayenin inkişafı ilə bağlıdır. Nəzərə alsaq ki, ixrac idxalı böyük dərəcədə üstələyir, biz idxalın artımına müsbət hal kimi yanaşmalıyıq. Bizim xarici ticarətimizin müsbət saldosu 9 ayda 6,5 milyard dollar təşkil edir. Bilirəm, bəziləri hesab edirlər ki, idxalın artımı müəyyən problemlər yarada bilər. Təbii ki, bu, belədir. Amma o təqdirdə ki, ixracımız artmasın. İxracımız idxaldan daha yüksək templərlə artır. Əgər altı ay ərzində 6,5 milyard dollar müsbət saldomuz varsa, deməli, ilin sonuna qədər bu, daha da artacaq. İdxalın artımı sənayenin inkişafı ilə bilavasitə bağlı olan məsələdir, insanların rifah halının yaxşılaşması ilə bağlıdır. Gömrük rüsumlarının artırılmasının səbəblərindən biri də məhz idxalın artımıdır. Ancaq, eyni zamanda, deməliyəm ki, digər amillər də müsbət rol oynayır. O cümlədən struktur islahatları, şəffaflıq, korrupsiyaya, rüşvətxorluğa qarşı ciddi mübarizə gömrük orqanlarında 800 milyon manatdan çox əlavə vəsaitin toplanmasına səbəb olubdur.

Vergi orqanlarında da ciddi struktur islahatları aparılır. Bu barədə nazir məlumat verdi. Mən qeyd etməliyəm ki, bizim əsas vəzifəmiz kölgə iqtisadiyyatının aradan qaldırılmasıdır. Düzdür, heç bir ölkədə buna 100 faiz nail olunmayıb, hər bir ölkədə kölgə iqtisadiyyatı var, amma bunun dərəcəsi var. Azərbaycanda kölgə iqtisadiyyatının kəskin şəkildə azalması üçün çox ciddi addımlar atılır. Vergidən yayınma halları əvvəlki illərdə kütləvi xarakter daşıyırdı. Bu, əlbəttə, imkan vermirdi ki, biz öz potensialımızı tam gücü ilə işə salaq. Bu gün bu hallara son qoyulur. Bütün dövlət orqanları vergi orqanlarına kömək göstərməlidirlər. Müvafiq göstərişlər verilir. Vergidən yayınmaya son qoyulmalıdır. Bu, həm iri, həm kiçik sahibkarlara aiddir. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar sahibkarlar kimi öz fəaliyyətini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Bilirəm ki, bəzi sahibkarlar bəzi dövlət məmurlarına arxalanırlar, o dövr artıq keçibdir. Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq. Bütün müvafiq qurumlara göstəriş verildi, ilk növbədə, Vergilər Nazirliyinə. Bu nazirlik heç nəyə baxmadan, dövlət maraqlarını rəhbər tutaraq öz siyasətini aparmalıdır. Bütün dövlət qurumları, o cümlədən sahibkarlar bu sahədə öz dəstəyini verməlidirlər. Dəstək verməyən isə cəzalandırılacaq.

Uçot sisteminin yaradılması prioritet məsələlərdən biridir. Mən əvvəlki illərdə də bu məsələni dəfələrlə qoymuşdum. Ancaq əfsuslar olsun ki, biz müəyyən səbəblərə görə uçot sisteminin yaradılmasına çata bilməmişik. İndi bu sistem yaradılır. Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün də praktiki addımlar atılır. Hesab edirəm ki, biz doqquz ayda vergilərin bu səviyyədə toplanmasına, - nəzərə alsaq ki, əvvəlki illərdə bu sahədə çox böyük pozuntular olub, - vergi orqanlarının çox fəal və məqsədyönlü fəaliyyəti nəticəsində nail ola bilmişik.

Şəffaflıq vergi və gömrük orqanlarında tam təmin edilməlidir, struktur islahatları davam etdirilməlidir. Korrupsiyaya, rüşvətxorluğa qarşı ən ciddi mübarizə aparılır və aparılacaqdır. Bu kompleks tədbirlər biznes mühitinin yaxşılaşdırılmasına öz dəstəyini verəcək. Sağlam rəqabətin təmin edilməsi üçün indi şərait yaradılır. İnhisarçılığa qarşı mübarizə çox ciddi xarakter alıbdır. Bir daha demək istəyirəm ki, bütün aidiyyəti qurumlar, özəl və dövlət şirkətləri mənim sözlərimdən nəticə çıxarsınlar. Vergi və gömrük sistemləri Azərbaycanda şəffaflığın nümunəsi olmalıdır. Mən göstəriş vermişəm ki, bu sahədə Avropanın aparıcı dövlətlərinin təcrübəsi Azərbaycanda tam tətbiq edilməlidir. Bu istiqamətdə işlər gedir.

İqtisadiyyatın rəqabətliliyinin artırılması üçün biz bundan sonra da fəal işləyəcəyik. Bildiyiniz kimi, Azərbaycanın bu sahədəki reytinqləri ən yüksək səviyyədədir. Mən bunu dəfələrlə demişəm və bir daha qürur hissi ilə deyə bilərəm ki, Davos Forumunun hesablamalarına əsasən biz iqtisadi rəqabətliliyə görə dünyada 35-ci yerdəyik. Ancaq onu da bilməliyik ki, biz daha da qabağa getməliyik. Ona görə Davos Forumunun hesabatı tam təhlil edilməlidir və təhlil edilir. Bəzi müddəalar var ki, biz orada geridə qalmışıq. Biz onlara mütləq baxmalıyıq və iqtisadiyyatın rəqabətliliyini daha da artırmalıyıq.

Qeyri-neft sektorunun inkişafı üçün çox böyük işlər görülür, addımlar atılır. Xüsusilə son dövrdə qəbul edilmiş qərarlar çox böyük canlanmaya gətirib çıxarıb. Təkcə onu demək kifayətdir ki, investisiya təşviqi sisteminin tətbiqindən sonra 300-dən çox investisiya təşviqi sənədi verilmişdir. Bu layihələrin icrası nəticəsində 20 min iş yeri yaradılıb. İnvestisiya təşviqi mexanizminin işə düşməsindən sonra icra edilən və nəzərdə tutulan layihələrin ümumi investisiya həcmi 2,7 milyard manatdır. Əgər biz bu sistemi tətbiq etməsəydik, heç kim gəlib bu vəsaiti Azərbaycana qoymazdı. Baxın, bir ciddi islahatın aparılması ilə təxminən 3 milyard manat investisiya cəlb etmişik, 20 min insan üçün isə iş yeri yaratmışıq.

Ardı 4-cü səh.

# Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik ölkədir

Əvvəli 3-cü səh.

Mən giriş sözümdə sənaye istehsalı ilə bağlı bəzi məsələləri qeyd etdim. Xüsusilə bu yaxınlarda orbitə çıxarılmış "Azerspace-2" peykini qeyd etmək istərdim. Bu, böyük nailiyyətdir. Bu, kosmik dövlət kimi Azərbaycanın mövqelərini daha da möhkəmləndirir. Bizim indi 3 peykimiz var. "Azerspace-2" peykinin orbitə çıxarılması bizim böyük qələbəmizdir. Eyni zamanda, bu sahədə görüləcək işlər bizə əlavə vəsait gətirəcək. Onu da qeyd etməliyəm ki, peykin imkanlarının demək olar yarısı, bəlkə də yarıdan çoxu artıq satılıb. Bundan sonra qalan təqribən 40 faiz hələ ki bölüşdürülməyib. Peykin xidmət potensialı, o da bölüşdürüləcək. Bu, kommersiya baxımından çox əlverişli layihədir, özünü tam doğruldacaq və bizə böyük həcmdə valyuta gətirəcək. Bu, bir ixrac növüdür. Eyni zamanda, kadr hazırlığı, texnologiyaların inkişafı baxımından çox önəmli layihədir. Biz haqlı olaraq fəxr edə bilərik ki, bizim indi 3 peykimiz vardır.

Bakıda neftayırma zavodunun yenidən qurulması, modernləşdirilməsi prosesi gedir. Bu da çox önəmli sənaye layihəsidir. Bu, bizə imkan verəcək ki, daha keyfiyyətli neft məhsulları istehsal edək. Yenidənqurma başa çatandan sonra Azərbaycanda istehsal olunacaq benzin "Avro-5" standartına cavab verəcək. Bu da ölkəmizin ekoloji vəziyyətinə müsbət təsir göstərəcəkdir. Eyni zamanda, bu zavodun yenidən qurulması, modernləşdirilməsi bizə böyük iqtisadi səmərə verəcək.

Neftçala Sənaye Parkında "Xəzər" adlı avtomobillər artıq istehsal olunur. Bu da çox gözəl hadisədir. Mənə verilən məlumata görə, 300-ə yaxın avtomobil istehsal olunub. Onların böyük hissəsi, 200-dən çoxu artıq satılıb. Bu zavodun illik istehsal gücü 10 min ədəd avtomaşındır. Əgər daxili tələbat və ixrac tələbatı olarsa, zavod bu səviyyəyə qalxa bilər.

Sənaye parkları ilə bağlı qeyd etməliyəm ki, Sumqayıt Kimya Sənaye Parkında yeni müəssisələr yaradılır. Orada da 2 milyard dollardan çox sərmayə nəzərdə tutulur. Gələn il bir neçə önəmli, vacib müəssisə açılacaqdır.

Mingəçevir Sənaye Parkında 2 böyük iplik fabriki işləyir. Orada 750 insan işlə təmin olunub. Orada işləyənlər əsasən qadınlardır. Bu iplik fabriklərinə 80 milyon dollar sərmayə qoyulub. Bu, bizim ixrac imkanlarımızı genişləndirir və biz mahlıcı orada ipə çevirərək artıq daha da valyutatutumlu məhsul ixrac edirik. Bu prosesin davamı olmalıdır ki, biz artıq hazır məhsula da nail ola bilək.

Bu il mənim iştirakımla Masallı Sənaye Parkının açılışı olmuşdur. Hacıqabul və Sabirabad rayonlarında sənaye məhəllələrinin yaradılması prosesi davam edir.

Sahibkarlara bundan sonra da dövlət öz dəstəyini göstərəcək. Bugünə qədər Sahibkarlığın İnkişafı Fonduna 2,2 milyard manat vəsait ayrılmışdır. Bu proses davam etdirilir. Mənə verilən məlumata görə, bu il də kreditləşmə uğurla gedir, tələbat çoxdur. Bu, çox sevindirici haldır. Əminəm ki, Sahibkarlığın İnkişafı Fondunun fəaliyyəti nəticəsində gələn il də ölkəmizdə minlərlə iş yeri yaradılacaq.

Mən giriş sözümdə qeyd etdim ki, kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. 4,3 faiz artım müsbət haldır. Amma əminəm ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcəkdir. Doqquz ayda 5700 kənd təsərrüfatı texnikası alınıbdır. Texnika ilə təminat böyük dərəcədə yaxşılaşıb. Kənd Təsərrüfatı Nazirliyi indi çox ciddi islahatlar aparır. Mənə məruzə edildi, mən bu islahatları dəstəklədim. Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək, düşünülmüş, sistemli qaydada, torpaqların münbitliyini nəzərə alaraq, əkin sahələrinin səmərəliliyini təmin edərək və ilk növbədə, məhsuldarlığı artıraraq biz mövcud olan torpaq fondumuzdan istifadə edərək istehsalı böyük dərəcədə artıra bilərik. Eyni zamanda, kənd təsərrüfatının ekstensiv inkişafı da nəzərdə tutulmalıdır. Biz bir çox meliorasiya layihələrimizi icra etmişik və icra edəcəyik. 192 min hektar sahədə 45 aqroparkın yaradılması nəzərdə tutulur. Onların 4-ü mənim iştirakımla açılıb. Verilən məlumata görə, ilin sonuna qədər açılan aqroparkların sayı 13-ə çatacaqdır.

İri fermer təsərrüfatlarında, taxılçılıqda nəticələr çox yaxşıdır. Təqribən hektardan orta hesabla 50 sentner məhsul götürülür. İri fermer təsərrüfatlarında tətbiq olunan texnoloji prosesi də biz bütün təsərrüfatlara yaymalıyıq. Belə olan halda, biz mövcud əkin sahəsindən daha çox məhsul yığa bilərik. Bu il taxılçılıqda artım olub, 3 milyon ton taxıl tədarük edilibdir. Buğda yığımında məhsuldarlıq 30 sentnerə çatıb. Pis nəticə deyil. Amma hesab edirəm ki, daha da artmalıdır və artacaq.

Pambıqçılıqda gələn ilin proqramı ilə bağlı məruzə edildi. Biz pambıqçılığı daha səmərəli şəkildə inkişaf etdirməliyik. Məhsuldarlıq artmalıdır. Keçən ilin məhsuldarlığı bizi heç cür qane edə bilməzdi. Bunun bir çox səbəbləri vardır və göstəriş verilmişdir, səbəblər araşdırılsın ki, biz pambıqçılığı məhsuldarlıq hesabına inkişaf etdirək.

Eyni zamanda, əgər biz statistikaya baxsaq görərik ki, 2016-cı ildə Azərbaycanda 90 min ton pambıq tədarük edilmişdir, - 2015-ci ili mən demirəm, o illərdə ümumiyyətlə məhsuldarlıq çox aşağı idi, - keçən il 207 min ton, yəni, 2 dəfədən çox. Bu il təqribən 250-260 min ton pambığın tədarükü nəzərdə tutulur. Yəni, artım dinamikası çox müsbətdir. Onu da qeyd etməliyəm ki, hazırda ölkəmizdə pambıqçılıqda 190 mindən çox insan işləyir. Bax, biz pambıqçılığı inkişaf etdirməyə başlayandan sonra bu insanlar işlə təmin olundular. Biz pambığın alış qiymətini bir neçə dəfə artırmışıq. Bu yaxınlarda son dəfə artırdıq ki, pambıqçılıqla məşğul olanlar daha çox pul qazansınlar. Bu gün 190 min insanın işi var.

İndi müasir texnologiyalar tətbiq edilir. Burada da elmi yanaşma tətbiq olunur. Əminəm ki, biz məhsuldarlığı böyük dərəcədə artıra bilərik. Məhsuldarlıq hektardan minimum 20 sentner olmalıdır. Ancaq indi biz bilirik ki, müasir texnologiyaların tətbiq olunduğu, düzgün aqrotexniki xidmət göstərildiyi bir vaxtda məhsuldarlıq daha da artır. Mən rəqəm səsləndirmək istəmirəm, ancaq hesab edirəm ki, burada inkişaf üçün çox böyük potensial var.

Üzümçülüklə bağlı işlər yaxşı gedir. Bu il biz yeni üzüm bağlarının salınmasını müşahidə etmişik. Mənim iştirakımla ən yüksək beynəlxalq standartlara cavab verən yeni şərab zavodu fəaliyyətə başladı və bu zavodun çox böyük ixrac potensialı var. Biz üzümçülüyün, şərabçılığın şöhrətini bərpa edirik, qaytarırıq. Bu, fermerlər üçün çox gəlirli bir sahədir. Biz bu sahəni bərpa etməklə həm öz ixrac imkanlarımızı genişləndiririk, həm də kəndlilərə, fermerlərə gözəl şərait yaradırıq. Eyni zamanda, üzümçülük mənzərəni də gözəlləşdirir. Mən bu il Şamaxı rayonunda böyük üzüm bağları ilə tanış olarkən gördüm ki, bu bağlar, həmçinin şərab zavodunun açılışı bölgəyə tam yeni bir mədəniyyət gətirir.

Azərbaycanda üzümçülüyün çox böyük ənənələri vardır. Biz bu ənənələri bərpa edirik və eyni zamanda, bu gün dünyanın ən qabaqcıl texnologiyalarını cəlb edirik. Təsadüfi deyil ki, ixracımız artır. İndi Azərbaycan şərab evlərini açmağa başlayıb. Artıq bir neçə ölkədə şərab evləri fəaliyyətə başlayır. Bizim şərabımıza böyük maraq var. Biz şərabçılıqla bağlı olan bütün məsələləri çox ciddi təhlil etmişik. Bir çox boşluqlar var idi - həm istehsalatda, həm uçotda, həm də aksiz markalarının yapışdırılmasında. Sanki kimsə bu boşluqları qəsdən edirdi ki, orada qeyri-şəffaf vəziyyət yaradılsın. Mən buna başqa bir izahat verə bilmərəm. Çünki o qədər çətin olmayan, yəni, böyük intellektual potensial tələb etməyən məsələlər var və elə bil onlar qəsdən edilib qatmaqarışıq salınsın ki, burada həm vergilərdən yayınsınlar, həm də qanunsuz istehsalla məşğul olsunlar. Şərab əvəzinə araq istehsal olunurdu. Məsələ çox ciddi araşdırılır. Bu sahədə tam şəffaflıq təmin edilməlidir. Şərab zavodlarının fəaliyyəti üçün bütün şərait yaradılıb, təki onlar təmiz işləsinlər. Əgər yenə məhsulları gizlədəcəklərsə, uçota düşməyən məhsulu satacaqlarsa, onlar çox ciddi cəzalandırılacaqlar, onu bilsinlər. Burada tam şəffaflıq olmalıdır. Bu, çox gəlirli sahədir. Sadəcə olaraq, gərək sahibkarlar öz tamahlarını cilovlaya bilsinlər.

Xüsusilə nəzərə alınmalıdır ki, dövlət öz dəstəyini göstərir. İxrac missiyalarını dövlət təşkil edir, şərab evlərinin yaradılmasını dövlət təmin edir, ixracla bağlı danışıqları dövlət aparır. Mən şəxsən bir neçə həmkarımla Azərbaycanın qeyri-neft ixracının artırılması ilə bağlı danışıqlar aparmışam və biz nəticəyə gəlmişik. Bütün bunları biz edirik, sahibkarlar da öz məsuliyyətini dərk etməlidirlər.

Mən regional inkişafla bağlı konfransların birində bəzi kənd təsərrüfatı məhsullarının istehsalını, istehlakını sadalayarkən özüm də o arayışı görəndə təəccüb etdim ki, biz xaricdən zeytun idxal edirik. O zeytun ki, bizdə, Abşeron yarımadasında hər tində bitə bilir. Ona görə çox ciddi göstəriş verildi ki, yeni zeytun bağları salınsın, onların suvarılması təmin edilsin və Azərbaycanda zeytun yağı istehsalı təşkil olunsun. Bugünə qədər olan istehsal bizi qane edə bilməzdi. Mənim bu istiqamətdə göstərişlərim yerinə yetirilir və son bir neçə il ərzində yeni zeytun bağları salınıb. Yüzlərlə, bəlkə də minlərlə hektar sahələrdə yeni zeytun bağları salınır. Bizim istehsalımız artır, zeytun yağı istehsalı artır, ixrac etməyə başlamışıq. Özü də çox keyfiyyətli zeytun yağıdır. Biz zeytunçuluğun inkişafı, zeytun yağının ixracı ilə bağlı dünya miqyasında öz dəyərli yerimizi tuturuq.

Mənim iradlarımı tütünçülüyə də aid etmək olar. Bu sahə də, demək olar ki, batıb gedirdi. Heç bir dövlət dəstəyi göstərilmirdi. Ancaq biz bu məsələ ilə məşğul olmağa, qurutma kameralarının yaradılmasına, tütün istehsalının təşviqi üçün addımlar atmağa başlayanda dərhal gözəl nəticələri görürük. Biz tütün istehsal edə-edə xaricdən siqaret alırıq. Elə ölkələr var ki, orada tütün, ümumiyyətlə, bitmir, onlar bizə siqaret ixrac edirlər. Bu, absurddur, dözülməzdir. Sadəcə, ona görə ki, bu məsələ ilə məşğul olmurdular və bu sahəni başlı-başına buraxmışdılar. Bəlkə hesab edirdilər ki, belə də olmalıdır. Amma biz indi vəziyyəti tam dəyişdiririk. Azərbaycanda yeni siqaret fabrikləri yaradılır. Biz özümüzü siqaretlə böyük dərəcədə təmin edəcəyik, ixrac potensialı yaradılır. Tütünçülükdə vəziyyət necədir? Əgər 2015-ci ildə 3400 ton quru tütün istehsal olunubsa, bu il 6 min ton quru tütün istehsalı nəzərdə tutulur, təxminən iki dəfə çox. Doqquz min insan tütünçülükdə işləyir, yaxşı pul qazanır. Bax, görülən işlərin nəticəsi budur.

Tərəvəzçilik ənənəvi ixrac sektorumuzdur. Ancaq biz burada da işlərimizi təkmilləşdirməliyik. Deməliyəm ki, Rusiyaya pomidor ixracında Azərbaycan birinci yerdədir. Biz çalışmalıyıq ki, bu birinciliyi saxlayaq. Onu da qeyd etməliyəm ki, Azərbaycanda bir çox istixanalar salınır. Son məlumata görə, təqribən 400 hektar sahədə yeni istixanalar salınır, onların da böyük əksəriyyəti pomidor istehsalına hesablanıb. Ona görə baxmalıyıq ki, nə qədər əlavə bazar bizim istehsalımızı həzm edə bilər. Eyni zamanda, biz gərək pomidorun emalını təmin edək ki, məhsulumuz xaricə daha da böyük qiymətə satıla bilsin.



Meyvəçilik sahəsində də müsbət irəliləyiş var. Qeyd etməliyəm ki, bizdə xurma ixracı 2 dəfə artıb, narçılıq inkişaf edir. Mən fındıqçılıqla bağlı xüsusi müşavirə də keçirmişdim və nəticələr göz qabağındadır. 2016-cı ildə fındıq bağlarının sahəsi təqribən 30-35 min hektar idi. Bu gün yeni bağların salınması hesabına bu rəqəm 70 min hektara çatıb və qarşıya hədəf qoyulub ki, 2020-ci ildə 83 min hektara çatacaq. Bu, məşğulluqdur, gəlirdir, valyutadır. Bu, ölkəmizə bəlkə də yüz milyonlarla dollar gətirəcək. Ölkəmizə deyəndə, fermerlərə, onlar da onu xərcləyəcəklər, onlar da öz güzəranını yaxşılaşdıracaqlar, daha yaxşı yaşayacaqlar və bizim tədiyə balansımıza da bunun müsbət təsiri olacaq. Hazırda fındıqçılıqda 17 min insan işləyir, yaxşı gəlir götürür.

Baramaçılıqda ümumiyyətlə vəziyyət, bəlkə ən acınacaqlı idi. Biz demək olar ki, bu sahəni tamamilə itirmişdik. 2015-ci ildə məlumat verildi ki, cəmi 236 kiloqram barama istehsal olunub və baramaçılar heç bilmirdilər ki, onu hara versinlər. Bütün bir zəncir sistemi yaratdıq - həm stimullaşdırma, həm maarifləndirmə, həm tinglərin gətirilməsi, indi Qaxda barama mərkəzinin yaradılması. Bütün bu işlər gözəl nəticə verir və bu il 500 tondan çox barama tədarük edilib. Əgər keçən il 10 min insan bu işlərə cəlb olunubsa, 2016-cı ildə 3 min, bu il 22 min insan. Beləliklə, bu insanlar 30-40 günə o qədər də böyük əziyyət çəkmədən yaxşı pul qazanır və Şəki ipək kombinatı da daha böyük həcmlə işləyir. Orada da yüzlərlə iş yeri yaradılıb. Əlbəttə ki, biz Şəki ipək kombinatının modernləşdirilməsi ilə məşğuluq. Həm iş yerlərinin artırılması, həm ixrac imkanlarının genişləndirilməsi istiqamətində işlər aparılacaq.

Mən kənd təsərrüfatı ilə bağlı yekun olaraq demək istəyirəm ki, ilk növbədə, biz daxili tələbatı təmin etməliyik, məhsuldarlığı artırmalıyıq, elmi yanaşmanı tətbiq etməliyik və ixrac imkanlarımızı genişləndirməliyik.

Bu sahədə kiçik sahibkarlıq da öz rolunu oynayır və oynayacaq. İndi "ABAD" - "Ailə Biznesinə Asan Dəstək" mərkəzləri yaradılır. Mən bunu alqışlayıram. Bu, daha da geniş vüsət almalıdır. Müşavirələrin birində mən özəl sektora müraciət etmişdim. Demişdim ki, onlar da bu təşəbbüsü dəstəkləsinlər və özəl şirkətlər "ABAD" mərkəzləri ilə müqavilələr bağlayıb sponsorluq edirlər. Bir neçə milyon manat dəyərində sponsorluq ki, fermerə, ailə təsərrüfatlarına dəstək olsunlar.

Əlbəttə ki, kənd təsərrüfatının inkişafı, o cümlədən özünüməşğulluq sisteminin tətbiqi ilə də bağlı olacaq. Bu sistem əlbəttə ki, təkcə kənd təsərrüfatı sahəsini əhatə etməyəcək. Burada da hər il 6 min, 7 min iş yeri yaradılmalıdır. Özünüməşğulluq proqramı işsizliyin, xüsusilə bölgələrdə işsizliyin, yoxsulluğun aradan qaldırılması üçün çox önəmli bir vasitə, alət olacaq. Eyni zamanda, bu gün dövlətdən sosial yardım alan ailələr dövlət tərəfindən, dövlət dəstəyi ilə onlara lazımi vəsait veriləndən sonra öz həyatlarını özləri quracaqlar və öz maliyyə imkanlarını böyük dərəcədə artırmış olacaqlar.

"ASAN xidmət" mərkəzlərinin inşası davam etdirilir. İlin sonuna qədər iki şəhərdə - İmişli və Şəkidə yeni mərkəzlər açılacaq və gələn il 4-5 mərkəzin açılması nəzərdə tutulub. Son məlumata görə, "ASAN xidmət" mərkəzlərinə 24 milyon müraciət olmuşdur. Demək olar ki, müraciət edənlərin təxminən 100 faizi göstərilən xidmətlərdən razıdırlar və məmnundurlar.

Sosial sahədə ciddi islahatlar aparılır. Nazirliyin yeni rəhbərliyinə mənim tərəfimdən çox ciddi tapşırıqlar verildi ki, sosial ədaləti pozanlara qarşı çox ciddi tədbirlər görülsün. Bu sahədə rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə çox ciddi aparılmalıdır və hazırda aparılır, şəffaflıq təmin edilir, bu sahədə yol verilmiş pozuntular aradan qaldırılır. İnzibati və institusional yollarla bu sahədə də ən müasir elektron texnologiyalar tətbiq olunmalıdır ki, şəffaflıq və ədalət tam təmin edilsin. Mənə görülən işlərlə bağlı müntəzəm olaraq məlumat verilir. Sosial sahədə biz "ASAN xidmət"in analoqunu yaradırıq - Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri, bunun adı da yaxşıdır - DOST mərkəzləri, mənası da yaxşıdır. Hesab edirəm ki, bu sahədə vətəndaşlar yaxın gələcəkdə müsbət dəyişiklikləri görəcəklər, artıq görürlər. İndi yerlərdən məlumat gəlir, ancaq biz hələ islahatların birinci mərhələsindəyik.

Eyni zamanda, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün evlərin tikintisi daha da sürətlə gedəcək. Mən bu il bir evin açılışında iştirak edərkən bildirdim ki, bu sahədə işləri sürətləndirmək üçün əlavə vəsait veriləcək. Ondan sonra bu il bu məqsədlər üçün Prezidentin Ehtiyat Fondundan 20 milyon manat ayrıldı ki, şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə yüzlərlə mənzil və maşın verilsin.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Deyə bilərəm ki, artıq 100-dən çox şəhərcik salınıb. Bu il əlamətdar hadisə baş verib, ilk dəfə olaraq özəl sektor məcburi köçkünlər üçün böyük şəhərcik salıb, Qobu qəsəbəsində mindən çox mənzil özəl sektor tərəfindən inşa edilib və köçkünlərə təqdim olunub. Mən bunu çox alqışlayıram. Hesab edirəm ki, bu proses Azərbaycanda vüsət almalıdır. Bizim iri şirkətlərimiz, böyük maliyyə imkanlarına malik olan şirkətlər var. Onlar gərək sosial məsuliyyətlərini göstərsinlər.

Bu il Sumqayıt şəhərində, Kürdəxanı, Mehdiabad, Ramana, Masazır qəsəbələrində, Abşeron, Tərtər, Qaradağ rayonlarında məcburi köçkünlər üçün binalar, evlər tikilir və onların sərəncamına verilir. Doqquz ayda 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunub. İlin sonuna qədər əlavə 2800 ailə evlərlə, mənzillərlə təmin ediləcək. Beləliklə, bu il 5700 ailə - təxminən 25 min insan evlərlə, mənzillərlə təmin olunacaq. Bax, bu, görülən işlərin nəticəsidir. Belə olan halda, ilin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatacaq.

Bundan sonra da, gələn il də bu məqsədlər üçün kifayət qədər vəsait nəzərdə tutulacaq. Amma, eyni zamanda, biz bu sahədə də çox ciddi islahatlar aparmalıyıq, uçot aparılmalıdır, şəffaflıq təmin edilməlidir. Çünki əfsuslar olsun ki, bu gün belə deyil. Bəzi hallarda köçkün olmayan vətəndaş gedib yalandan öz adını yazdırır, sonra dövlətdən mənzil alır. Belə hallar var və köçkünlər xoşagəlməz hallarla üzləşirlər. Növbə ilə bağlı məsələlər var. Yəni, ədalətsizliklər aradan qaldırılmalıdır və pozuntulara yol açan boşluqlar da bağlanmalıdır. Növbədə dayanan, ən ağır vəziyyətdə yaşayan vətəndaş, ilk növbədə, mənzil almalıdır, belə göstəriş verilib. Mənzil ancaq köçkünə verilməlidir. Bəzi hallarda məlumat gəlir ki, köçkünlər üçün tikilmiş evlərdə başqa vətəndaşlar yaşayır. Bəzi hallarda biləndə ki, misal üçün, ev söküləcək, yeni evə köçürüləcəklər, yerli icra orqanları, digər qurumlar gedib oraya pul müqabilində köçkün olmayan adamların adlarını yazdırırlar. Bu, ən böyük vicdansızlıqdır. Köçkünlərin vəziyyətindən istifadə edib əsassız imtiyaz, gəlir əldə etmək ən böyük günahdır, vicdansızlıqdır. Bunu edənlərin vicdanı, imanı yoxdur. Ona görə bunlara qarşı çox ciddi mübarizə aparılır və aparılacaq, onlar eşitsinlər. Burada çox ciddi şəffaflıq və uçot təmin edilməlidir və ediləcək.

İnfrastruktur layihələri ilə bağlı ilin sonuna nəzərdə tutulan bütün məsələlər öz həllini tapır. Qazlaşdırma 94 faizə çatıb, hədəf 95 faiz idi, ilin sonuna qədər biz buna nail olacağıq. Bu ilin sonuna qədər "Şimal-2" elektrik stansiyasının istifadəyə verilməsi nəzərdə tutulur. Bu, bizim sistemimizə əlavə 400 meqavat enerji verəcək. Bu, çox böyük gücdür. Eyni zamanda, enerji sistemimizdə çox ciddi islahatlar, təhlil aparılır. Yay ayında baş verən o qəzanın səbəbləri tam araşdırılıb və müvafiq inzibati ölçülər götürülüb. İnvestisiya qoyuluşu, bizim enerji təsərrüfatının texniki vəziyyəti ilə bağlı çox ciddi addımlar atılıb, bu işlərə beynəlxalq məsləhətçilər cəlb edilib. Biz bu il və gələn il bu sahəyə əlavə vəsait ayıracağıq ki, həm generasiya güclərinin yaradılması, ötürücü xətlərin, yarımstansiyaların tam dayanıqlılığı təmin edilsin. Eyni zamanda, mövcud stansiyaların generasiya güclərinin artırılması üçün əlavə addımlar atılacaq. Çünki vaxtilə tikilmiş stansiyalar tam gücü ilə işləmir. Mənə məlumat veriləndə cədvələ baxıram ki, 80 meqavat nəzərdə tutulub, cəmi 15 meqavat işləyir. Bunları belə səmərəsiz şəkildə istismar ediblər ki, onların bəziləri, demək olar ki, öz potensialını itirib. Biz bunları bərpa edəcəyik. Təbiidir, müəyyən qədər vaxt lazım olacaq. Ancaq bu sahədə tam yeni bir yanaşma olmalıdır. Biz bu gün də elektrik enerjisini ixrac edirik, bizdə kifayət qədər potensial var. Gələcəkdə özümüzü perspektivləri nəzərə alaraq təmin etməklə ixracımızı da artıracağıq.

Digər infrastruktur layihələri ilə bağlı işlər qrafik üzrə gedir. Bu il 1200 kilometr yol çəkilib. Hədəf 2000 kilometr idi. Biz bu hədəfə çatacağıq. Bu il 600 kəndin yolları abadlaşdırılır. İçməli su layihələri, meliorativ tədbirlər uğurla icra edilir. Bu il biz 100 min hektar torpağa su gətirmişik, 270-dən çox subartezian quyusu qazılıb, hələ ilin sonuna qədər 30-u da qazılacaq.

Mən burada bəzi layihələri səsləndirmək istərdim, meliorativ tədbirlərlə bağlı konkret hansı addımlar atılıb. Yuxarı Mil kanalının tikintisi nəticəsində 1900 hektar, Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində, Qarasu kəndində görülən işlər 2720 hektar, Abşeron yarımadasında Abşeron magistral kanalında yenidənqurma işlərinin aparılması nəticəsində 7 min hektar, Şəmkir-Samux-Goranboy suvarma kanalının ikinci növbəsi təxminən 12 min hektar, Neftçala magistral kanalının nasos stansiyasının birlikdə tikintisi 12 min 500, Araz çayının yeni qolunun beton üzlüyə alınması 13 min 100, Şabran rayonu 1700, Qax rayonu 900 hektara yaxın, Xəzər, Pirallahı, Xızı rayonlarında meyvə bağlarının salınması 1600, Xəzər rayonunun Qoşaqışlaq ərazisində 750, Sabirabad, Salyan rayonlarında yerləşən qış otlaqlarında 11 min, Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndinin əkin sahələrinin təminatının yaxşılaşdırılması üçün "H" kanalının yenidən qurulması 7500, Qazax rayonunun Xanlıqlar, Kəmərli, Aslanbəyli, Qaymaqlı, İkinci Şıxlı kəndlərinin əkin sahələrinin su ilə təminatı üçün 500, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin suvarılması ilə bağlı 280, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində Xızı, Siyəzən, Şabran rayonlarında 20 min hektara yaxın və digər layihələr, o cümlədən subartezian quyular 8700 hektar. Cəmi bir il ərzində, bax, bu qədər torpaq su ilə təmin edilib. Əlbəttə ki, biz məhsuldarlığı da artıracağıq. Artıq təkliflər hazırlanır, gələn il biz bu istiqamətdə əlavə işlər görəcəyik.

Sosial infrastrukturla bağlı bir neçə kəlmə demək istərdim. Bu il Bakıda iyirmiyə yaxın məktəb əsaslı təmir edilib, tikilib. Bölgələrdə yüzlərlə məktəb təmir edilib, o cümlədən 137 modul tipli məktəbin tikintisi nəzərdə tutulur. 42 tibb müəssisində təmir-tikinti işləri aparılmışdır.

Ölkəmizin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün işlər görülür, təhlil aparılır. İlk növbədə, neftlə çirklənmiş ərazilər təmizlənir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müvafiq göstəriş verilib, vəsait ayrılıb. Abşeron yarımadasında neftlə çirklənmiş yerlər tam təmizlənəcək, həmin yerlərdə bağlar, yaşıllıqlar, göllər salınacaq. Bu işlər gedir, gələn il də nəzərdə tutulur. Xəzərin sahilində yeni təmizləyici qurğuların yaradılması istiqamətində işlər gedir. Burada da vəziyyət bizi tam qane edə bilməz. Havanı çirkləndirən məişət obyektlərinə ciddi xəbərdarlıq edilib. Axşam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Ona görə, çox ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq. Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıblar. Onların hamısına məsləhətim ondan ibarətdir ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, əldən çıxdı. Ona görə tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcək.

Ağacların kəsilməsi halları azalıb, amma tam aradan qaldırılmayıb. Bir daha demək istəyirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi olmadan əgər kimsə bir ağac kəsirsə, onda özündən küssün.

Bakı şəhərində və digər şəhərlərdə qanunsuz tikililərə son qoyulmalıdır və son qoyulur. Müvafiq sərəncam imzalanıb, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin icazəsi olmadan bir dənə də bina tikilə bilməz. Bu məsələ ilə bağlı mən əvvəllər də fikirlərimi bildirmişəm. Bu gün deyə bilərəm ki, artıq bu məsələ öz həllini tapıb. Çünki əvvəlki dövrlərdə təqsiri bələdiyyələr rayon icra hakimiyyətlərinin, rayon icra hakimiyyətləri Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı Şəhər İcra Hakimiyyəti bələdiyyələrin, yəni, bir-birinin üstünə atırdılar. Amma əslində hamısı əlbir idilər. Çünki qanunsuz tikililərdən böyük qazanc əldə edirdilər. Buna son qoyulub, artıq sərəncam imzalanıb. Yəni, bu qaydanı pozan cinayət məsuliyyətinə cəlb ediləcək və qanunsuz tikilən binalar dərhal söküləcək.

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və kiminsə tamahı naminə biz şəhərimizi eybəcər hala sala bilmərik. Şəhərsalma qaydaları var, mərtəbələrin yerə görə hündürlüyü var. Hava axınının müvafiq qaydaları var. Bizdə isə bu, pozulurdu. Elə bil ki, böyük bir sədd tikirdilər. Havanın keçməsi üçün heç bir imkan qalmırdı, həyətlərdə ağacları qırıb binalar tikirdilər. Yerli orqanlar buna həm göz yumurdular, həm də yəqin ki, əlbir idilər. İndi buna son qoyulub. Mən bunu bildirmək istəyirəm. Vətəndaşlara da mən müraciət etmək istəyirəm, ilk növbədə, təşəkkürümü bildirmək istəyirəm. Çünki bir çox hallarda vətəndaşların fəallığı nəticəsində o tamahkar adamlar istədiklərinə nail ola bilməmişlər. Çünki vətəndaşlar dururdular, keşik çəkirdilər, qoymurdular, xəbər verirdilər və onların fəallığını mən alqışlayıram. Dəfələrlə demişəm ki, ictimai nəzarət güclü olmalıdır, artıq biz bunu görürük. Ona görə bir daha vətəndaşlara müraciət edirəm. Əgər haradasa görsələr ki, qanunsuz nəsə tikilir, dərhal məlumat versinlər, ilk növbədə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Bakı Şəhər İcra Hakimiyyətinə və Prezident Administrasiyasına. Bu sahədə də qayda-qanun yaradılır.

Şəhər nəqliyyatı sahəsində də irəliləyiş var. Biz şəhər nəqliyyatının təkmilləşdirilməsi işində islahatlar aparırıq, həm yol-nəqliyyat hərəkətinin tənzimlənməsi, eyni zamanda, yeni yolların açılması, nəqliyyat vasitələrinin alınması istiqamətində. Bu il şəhərimizə əlavə 300 yeni müasir avtobus gətiriləcək. Mən göstəriş vermişəm, gələn il də minimum 300, əgər maliyyə imkanımız olsa, 500 yeni avtobus gətirilməlidir. Dövlət bu sahədə öz liderliyini göstərməlidir. Çünki son vaxtlar baş vermiş dəhşətli qəzalar bizim hamımızı çox üzür və bu, vətəndaşlar üçün çox böyük faciədir, böyük itkidir. Nəyə görə? Çünki sükan arxasında oturan öz məsuliyyətini dərk etmir. Onun psixoloji, narkoloji durumuna, peşəkarlığına lazımi qaydada nəzarət olunmur, sadəcə olaraq pul naminə. Şirkətə pul lazımdır. Ona görə də bədbəxt hadisələr baş verir. Avtobus qatara çırpılır, günahsız insanlar həlak olur. Mühafizə orqanları belə hallara çox ciddi reaksiya verməlidir və belə hallar nəzarətdə olmalıdır. Çünki bəzi hallarda bu hadisəni törədənlər müəyyən müddətdən sonra məsuliyyətdən yayınırlar. Ona görə buna son qoymaq üçün müvafiq qurumlar tərəfindən çox ciddi təftiş aparılmalıdır. Avtobusları idarə edən şirkətlər çox ciddi nəzarətə götürülməlidir. Avtobusların texniki parametrləri ilə bağlı çox ciddi təftiş aparılmalıdır. Mən bir daha demək istəyirəm, əfsuslar olsun ki, özəl sektor bu sahədə istədiyimizə nail ola bilmədi. Bu sahə, ümumiyyətlə, özəl sektorun ixtiyarına buraxılmışdı. Belə bir fikir var idi ki, onlar bunu yaxşı idarə edəcəklər, məsuliyyətlə. Amma biz nəyi görürük? Gedirlər sıradan çıxmış, sınıq-salxaq avtobusları gətirib salırlar bizim küçələrimizə. Həm insanlar, həm hava üçün təhlükədir, həm də ümumiyyətlə, heç bir normaya sığmır. Ona görə bizim dövlət qurumumuz var - "Bakubus" şirkəti. Onların xətti ilə biz bu işi davam etdirməliyik. Əgər özəl şirkətlər bu sahədə işləmək istəyirlərsə, öz işlərində çox ciddi dəyişiklik etməlidirlər və dövlət orqanları onlara çox ciddi nəzarət etməlidir.

Mən məişət tullantıları ilə bağlı müvafiq göstəriş vermişəm. Bu sahə Bakı şəhərində lazımi səviyyədə tənzimlənmir. Ona görə vahid bir zəncir yaradılmalıdır - qapıdan ta Balaxanı məişət tullantılarının emalı zavoduna qədər. Ona görə indi müvafiq qurumlar bu məsələ ilə bağlı təkliflər hazırlayır. Mən göstəriş vermişəm ki, bu işlərə beynəlxalq məsləhətçilər cəlb edilsin, bu sahədə də dünyanın aparıcı şəhərlərinin mövcud təcrübəsi Azərbaycanda tam tətbiq olunsun.

Eyni zamanda, Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş vermişəm ki, binaların həyətləri abadlaşdırılsın, orada həm yaşlı insanlar, həm də uşaqlar üçün şərait yaradılsın, həyətlər bütün qanunsuz tikililərdən təmizlənsin, lift təsərrüfatı təzələnsin, harada ki ehtiyac var, yeni liftlər qoyulsun. Yəni, mənzil-kommunal təsərrüfatının yeniləşməsi istiqamətində çox ciddi addımlar atılacaq. Bakı şəhərində isə yeni parklar, bulvarlar salınır. Bakı indi gözəl parklar, xiyabanlar şəhəridir. Köhnə, yararsız vəziyyətdə olan sənaye müəssisələri şəhərin mərkəzindən çıxarılır, yeni gözəl parklar salınır. Bu il də onlardan biri Babək prospektində, Heydər Əliyev Mərkəzinin aşağısında, Yusif Səfərov küçəsində salınıb və vətəndaşların sərəncamına verilib. Biz bu istiqamətdə işlərimizi davam etdirəcəyik.

Dəmir yolu ilə bağlı bəzi layihələri qeyd etmək istərdim. Mən ilin əvvəlində demişdim ki, bu ilin sonuna qədər Bakı-Gəncə sürət qatarının işə salınması prosesi başa çatmalıdır. İlin sonuna artıq az vaxt qalıb. Yəqin ki, biz bunu görəcəyik. Hər halda, kifayət qədər vəsait ayrılıb. Digər istiqamətlər üzrə - Bakı-Yalama dəmir yolunun yenidən qurulması istiqamətində, Bakı-Qəbələ dəmir yolunun çəkilişi ilə bağlı işlər gedir. Eyni zamanda, Bakı dairəvi avtomobil yolunun tikintisi davam edir. Bu da şəhər nəqliyyatı üçün çox önəmli bir layihə olacaq və bunu biz metro tikintisi ilə uzlaşdırmalıyıq. Onu da qeyd etməliyəm ki, bu ilin Dövlət İnvestisiya Proqramında metro tikintisi üçün də kifayət qədər vəsait ayrılmışdır.

Gələn ilin əvvəlində biz növbəti regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Bu il üçüncü proqramın icrası başa çatır. Proqram demək olar ki, artıqlaması ilə icra edilib. İndi dördüncü proqram hazırlanır, son mərhələdədir. Dördüncü proqramda bu gün hələ də görə bilmədiyimiz işlər öz əksini tapmalıdır ki, qarşımızda duran bütün vəzifələr icra edilsin. Sağ olun.

# Antalyada Avrasiya ölkələri parlament sədrlərinin üçüncü görüşü keçirilib







Türkiyə Böyük Millət Məclisinin (TBMM) təşkilatçılığı ilə Antalya şəhərində Avrasiya ölkələri parlament sədrlərinin üçüncü görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, "Avrasiyada iqtisadi əməkdaşlıq, ətraf mühit və davamlı inkişaf" devizi altında keçirilən görüşdə Azərbaycanı Milli Məclisin Sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

Azərbaycan nümayəndə heyətinə Milli Məclisin komitə sədri Əli Hüseynli, deputatlar Xanlar Fətiyev, Ağalar Vəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Tədbirə 39 ölkənin parlament nümayəndələri və bir sıra beynəlxalq təşkilatların təmsilçiləri də daxil olmaqla, ümumilikdə 350-dən çox iştirakçı qatılıb.

Görüşün rəsmi açılışında çıxış edən Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım Avrasiya ölkələri parlament sədrlərinin artıq ənənə halını alan görüşlərinin məqsəd və vəzifələrindən danışıb. Dünyanın ayrı-ayrı bölgələrində mövcud münaqişələrin əməkdaşlığa və inkişafa ən böyük əngəl olduğunu diqqətə çatdıran və bu kontekstdə Dağlıq Qarabağ probleminə də toxunan TBMM-in sədri bildirib ki, Türkiyə Avrasiya məkanında ölkələrin, xalqların sülh və bərabərlik, inkişaf və rifah şəraitində yaşamasına tərəfdar olmaqla, bu istiqamətdə önəmli addımlar atmaqdadır. Qeyd edilib ki, Yaxın Şərqdə, həmçinin Suriyada sülh və əmin-amanlığın təmini üçün edilən cəhdlər buna nümunədir.

Parlament sədri qeyd edib ki, heç kim iqlim dəyişikliyi, ətraf mühitin çirklənməsi, qaçqın və məcburi köçkünlər məsələsinə biganə qalmamalıdır. Terrorçuluğun və onun dəstəklənməsinin yaratdığı təhlükələrdən bəhs edən Binəli Yıldırım qeyd edib ki, Türkiyə bundan sonra da terrorun bütün forma və metodlarına, o cümlədən PKK, FETÖ və digər terror təşkilatlarına qarşı mübarizəni davam etdirəcək.

Koreya Respublikası Milli Assambleyasının sədri Mun Hi-sanq Avrasiya məkanında sülhün, sabitliyin və inkişafın qorunması ilə bağlı ölkəsinin mövqeyindən bəhs edib. İnkişaf və rifaha nail olmaq üçün dünyadakı problemlərin dialoq vasitəsilə çözülməsinin əhəmiyyətindən danışan sədr qeyd edib ki, bu prosesdə parlamentlərarası əlaqələr mühüm gücə malikdir. Koreya yarımadasındakı mövcud problemin sülh yolu ilə tənzimlənməsinin əhəmiyyəti böyükdür.

Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodin çıxışında dünyadakı mövcud problemlərin qarşılıqlı anlaşma şəraitində həllinin əhəmiyyətinə toxunub. Qeyd olunub ki, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi, həmçinin Suriya probleminin həlli üçün bu ölkənin bəzi bölgələrində atəşkəsin əldə olunması kimi nailiyyətlər maraqlı ölkələr arasında aparılan səmərəli dialoq nəticəsində qazanılıb. Vyaçeslav Volodin bildirib ki, bütün problemlərin həllinə və iqtisadi əməkdaşlığa yalnız sülh çağırışları sayəsində nail olmaq mümkündür.

Çıxışında yüksək təşkilatçılığa görə Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırıma səmimi təşəkkürünü ifadə edən Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki, hazırda bütün dünya miqyasında getdikcə daha da kəskinləşən qlobal problemlərin həllində parlamentlərin həm ikitərəfli, həm də çoxtərəfli formatda əməkdaşlığı mühüm rol oynayır. İnanıram ki, bugünkü müşavirədə aparılan fikir mübadiləsi bir-biri ilə sıx bağlı olan iqtisadi əməkdaşlıq, ətraf mühit və davamlı inkişaf məsələlərində parlamentlərimizin ortaq mövqelərinin müəyyən edilməsinə kömək göstərəcək.

Milli Məclisin Sədri qeyd edib ki, bu gün dünya birliyi özünün artan tələbatı ilə bu tələbatın yerinə yetirilməsi imkanları arasında kəskin ziddiyyətlərlə qarşılaşıb. Həmin ziddiyyətlərin həll edilməsi üçün işlənib hazırlanan davamlı inkişaf modeli bəşəriyyətin təhlükəsiz gələcəyi naminə bütün dövlətlərin səylərinin birləşdirilməsi üzərində qurulub. Qlobal xarakter alan dünya iqtisadiyyatı getdikcə daha çox dərəcədə ekoloji tarazlığın qorunub saxlanması konsepsiyasına əsaslanır.

Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki, əgər Avrasiya məkanına nəzər salsaq, əminliklə söyləyə bilərik ki, burada iqtisadi inteqrasiyanın güclənməsi davamlı inkişaf sahəsində məqsədlərə nail olunmasına töhfə verə bilər. Böyük Avrasiya ölkələrində dünya enerji istehsalının ondadoqquz hissəsi, dünya ümumi daxili məhsulunun dörddəüç hissəsi və dünya əhalisinin beşdədörd hissəsi cəmləşib. Məmnunluqla qeyd etmək istəyirəm ki, bu gün Avrasiya məkanında bir sıra ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatları təşəkkül tapıb.

Azərbaycanın fəal iştirakı ilə həyata keçirilən transmilli layihələrin iqtisadi inteqrasiya üçün yaranmış imkanların lazımınca dəyərləndirilməsi nəticəsində meydana gəldiyini diqqətə çatdıran parlament Sədri Oqtay Əsədov bildirib ki, bu layihələr Avrasiya qitəsinin çox geniş bir bölgəsində inkişafın, sülhün, sabitliyin, təhlükəsizliyin, dialoqun və qarşılıqlı anlaşmanın təmin edilməsinə yönəlib. İqtisadi layihələrin hazırlanması və həyata keçirilməsi zamanı ekoloji məsələlərə xüsusi diqqət yetirilir. Azərbaycanın iştirak etdiyi bütün transmilli layihələrdə ətraf mühitin qorunması ən yüksək standartlar əsasında təmin edilir.

Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum və TANAP qaz kəmərləri və digər enerji-nəqliyyat layihələrinin Avrasiya qitəsinin yeni iqtisadi xəritəsinin formalaşmasında mühüm rol oynadığını ifadə edən Milli Məclisin Sədri bildirib ki, Azərbaycan XXI əsrin qlobal geosiyasi və geoiqtisadi layihələrindən biri olan Böyük İpək yolunun bərpasında yaxından iştirak edir. Dünyanın ən uzun ölçüyə malik olan "iqtisadi kəməri" onlarca ölkənin zəngin energetika, sənaye, kənd təsərrüfatı, turizm potensialına əsaslanmaqla regionlararası əməkdaşlığın çoxcəhətli innovasiya modelini təqdim edir. Ötən il İpək yolunun fəaliyyəti üçün böyük önəmi olan Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Araşdırmalar göstərir ki, bu layihə Çindən Avropaya tranzit müddətini 30-35 gündən iki həftəyə qədər azalda bilər. Azərbaycanın fəal iştirakı ilə həyata keçirilən digər bir layihə "Şimal-Cənub dəhlizi" adlanır. Bu layihə ölkəmizin nadir coğrafi mövqeyindən istifadə etməklə Hindistanı, İranı, Rusiyanı, Şimali Avropanı və Yaxın Şərqi birləşdirəcək. Artıq layihənin bizə aid olan hissəsi tamamlanıb. Yaxın gələcəkdə bu layihə İpək yoluna inteqrasiya olunaraq, yeni bir nəqliyyat marşrutunun açılmasına imkan verəcək.

Oqtay Əsədov qeyd edib ki, Avrasiya qitəsində yaşayan xalqların firavan gələcəyi yalnız qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlıq, mehriban qonşuluq, qarşılıqlı hörmət, humanizm və tolerantlıq əsasında qurula bilər. Təəssüflər olsun ki, Avrasiya məkanında alovlanmaqda olan müharibə və münaqişə ocaqları, o cümlədən ölkəmizin zorla cəlb edildiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi geniş bir bölgənin inkişaf imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırmaqda davam edir. Ermənistan silahlı qüvvələri 25 ildən çoxdur ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazisinin 20 faizini, yəni Dağlıq Qarabağ regionunu və onun ətrafındakı 7 rayonu işğal edib. Aparılan etnik təmizləmə nəticəsində Ermənistan ərazisindən və Azərbaycanın işğal olunmuş torpaqlarından 1 milyon dinc sakin qovulub didərgin salınıb. Azərbaycanlı əhaliyə qarşı bir neçə soyqırımı cinayəti törədilib. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrində, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnamədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənib və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilib. Avropa Parlamentinin və Avropa Şurası Parlament Assambleyasının müxtəlif illərdə qəbul etdikləri qətnamələrdə də Ermənistan silahlı qüvvələrinin işğal olunmuş bütün ərazilərdən çıxarılması tələb olunub, yurdlarından didərgin düşmüş şəxslərin öz torpaqlarına geri dönməsi hüququ təsdiq edilib. Təəssüf ki, münaqişənin həll edilməsi üçün bugünədək göstərilən beynəlxalq səylər Ermənistanın qeyri-konstruktiv və pozucu mövqeyi üzündən heç bir səmərə verməyib. Hər kəsə aydın olmalıdır ki, vəziyyətin bu cür qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də Avrasiya qitəsində və bütün dünyada sülh və sabitlik üçün daim təhlükə mənbəyidir. Əminəm ki, bu məsələdə beynəlxalq birlik, nəhayət, öz qəti sözünü deməli və münaqişə beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları, xüsusən dövlətlərin ərazi bütövlüyü prinsipi əsasında həllini tapmalıdır.

İştirakçı tərəflərin nümayəndə heyətlərinin başçıları Avrasiya ölkələri parlament sədrlərinin görüşü ilə bağlı ölkələrinin mövqelərini çatdırıblar. Çıxışlarda münaqişə və problemlərin yaratdığı çətinliklər, onların həlli yolları, iqlim dəyişikliyinin fəsadları, ətraf mühitin geniş şəkildə çirklənməsinin yaratdığı ağır nəticələrdən bəhs olunub. Bu görüşlərin daha intensivləşməsi və müzakirə olunan məsələlərin icrası ilə bağlı maraqlı təklif və çağırışlar səslənib.

Avrasiya ölkələri parlament sədrlərinin üçüncü görüşü işini panel iclaslarla davam etdirib.

Plenar iclasda çıxış edən Ermənistan parlamenti sədrinin müavini Eduard Şarmazanov işğalçı dövlətin ənənələrinə uyğun olaraq uydurma "erməni soyqırımı" və Dağlıq Qarabağ problemi ilə bağlı həqiqətə uyğun olmayan, böhtan xarakterli və məntiqsiz fikirlər səsləndirib.

Azərbaycan Milli Məclisinin Sədri Oqtay Əsədov təcavüzkar dövlətin nümayəndəsinə tutarlı cavab verərək deyib: "Ermənistan nümayəndəsinin bu mötəbər tədbiri çaşdırmaq üçün söylədiyi fikirlər məni yenidən çıxış etməyə vadar etdi. Əslində bizim bugünkü toplantı bölgədə sülhü, dialoqu və inkişafı təşviq etmək məqsədi daşıyır. Məlum olduğu kimi, Dağlıq Qarabağ xalqı deyilən bir xalq yoxdur. Dağlıq Qarabağda Azərbaycan və erməni icmaları yaşayıblar. Bildiyiniz kimi, Dağlıq Qarabağın Azərbaycan əhalisi etnik təmizləmə nəticəsində öz doğma torpaqlarından didərgin düşüb. Ermənistan nümayəndəsinin hazırda orada yaşayan Qarabağ ermənilərinə öz müqəddəratlarını təyinetmə hüququnun verilməsi ilə bağlı fikri tam yanlış və hüquqaziddir. O zaman belə bir maraqlı fikir meydana gəlir: deməli, ermənilər harada toplum şəklində yaşayırlarsa, orada onlara öz müqəddəratlarını təyinetmə hüququ verilməlidir? Ermənistan nümayəndəsinin çıxışında bu görüşə evsahibliyi edən Türkiyənin adını çəkməməsi onun siyasi mədəniyyətinin səviyyəsini göstərir. Türkiyəni daim qondarma "erməni soyqırımı" törətməkdə günahlandıran Ermənistan özü XX əsrin sonunda Azərbaycanın Xocalı şəhərində soyqırımı törədib. Bir çox ölkələr, o cümlədən ABŞ-ın 18 ştatı Xocalı soyqırımı ilə bağlı qətnamələr qəbul edib. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, beynəlxalq təşkilatlar, BMT, Avropa Şurası, Avropa Parlamenti Ermənistanı işğalçı ölkə kimi tanıyır. Ermənistandan başqa, bütün dünya dövlətləri Azərbaycanın Dağlıq Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü tanıyır. Bu da onu sübut edir ki, münaqişə tərəfi Dağlıq Qarabağ yox, məhz Ermənistandır".

Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım bu məsələyə münasibət bildirərək deyib: "Dünyada sülhə və sabitliyə dəyər verən bu toplantımızda həqiqəti sarsıdan fikirləri qəbul etməyimiz mümkün deyil. Ermənistan həqiqətən də Türkiyə ilə əlaqələrini istəyirsə, o, saxta "erməni soyqırımı" iddiasından əl çəkməli, tarixi hadisələri tarixçilərin araşdırmasına buraxmalıdır. Parlament sədri Oqtay Əsədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı ətraflı bəhs etdi. Ermənistan bu mövqeyi ilə əslində özü-özünü təcrid vəziyyətinə salıb. Ermənistan anlamalıdır ki, qonşuları ilə əlaqələri normallaşdırmalı, Cənubi Qafqazda sülh, sabitlik və rifah yolu tutmalıdır. Yalnız belə olarsa, mövcud problemlər aradan qalxa bilər".

Sonda bəyannamə qəbul olunub.

Mərasim keçirilən məkanda Anadolunun tarixini əks etdirən təsviri incəsənət əsərlərindən ibarət sərgi nümayiş etdirilib.

Qeyd edək ki, Avrasiya ölkələri parlament sədlərinin iki il əvvəl Moskvada başlayan və ötən il Seulda davam etdirilən dialoqu artıq ənənəyə çevrilib. Azərbaycan bu prosesdə fəal iştirak edir.

# Azərbaycan-Rusiya münasibətlərinin inkişafında parlamentlərarası əlaqələrin önəmli rolu var



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov Türkiyə Respublikasının Antalya şəhərində Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodin ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Avrasiya ölkələri parlament sədrlərinin 3-cü toplantısı çərçivəsində keçirilən görüşdə iki qonşu ölkənin parlamentləri arasında münasibətlərin dinamikası yüksək dəyərləndirilib. Tərəflər Azərbaycan və Rusiya parlamentləri arasında birgə komissiyaların yaradılması ilə bağlı səmərəli fikir mübadiləsi aparıblar. Avrasiya ölkələri parlament sədrlərinin 3-cü toplantısında hər iki ölkənin ümumi maraqlarını əks etdirən mövqenin nümayiş etdirildiyi bildirilib. Spikerlər arasında görüşlərin müntəzəm xarakterli olduğunu diqqətə çatdıran Dövlət Dumasının sədri Vyaçeslav Volodin qeyd edib ki, əlaqələrin daha da genişləndirilməsi üçün bütün imkanlardan istifadə olunur.

Azərbaycan-Rusiya münasibətlərinin inkişafında parlamentlərarası əlaqələrin önəmli rolunu yüksək dəyərləndirən Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki, keçirilən hər bir görüş faydalıdır və əhəmiyyətlidir.

# Antalyada Azərbaycan və İran parlament sədrləri arasında görüş olub

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov Antalya şəhərində İran İslam Respublikası İslam Şurası Məclisinin sədri Əli Laricani ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Avrasiya ölkələri parlament sədrlərinin 3-cü toplantısı çərçivəsində keçirilən görüşdə ölkələrimizin qanunverici orqanları arasında münasibətlərin inkişafına dair səmərəli fikir mübadiləsi aparılıb.

Tərəflər parlamentlər arasında əlaqələrin inkişaf dinamikasını yüksək dəyərləndiriblər. Ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivlərindən danışılan görüşdə "Şimal-Cənub nəqliyyat dəhlizi" ilə bağlı müzakirələr də aparılıb.

Milli Məclisin Sədri Oqtay Əsədov qeyd edib ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti "Şimal-Cənub dəhlizi" üçün böyük perspektivlər yaradır.



# Litvalı rejissor Arunas Matelisin filmi Bakıda təqdim edilib

Oktyabrın 9-da Nizami Kino Mərkəzində litvalı rejissor Arunas Matelisin ekranlaşdırdığı "Möhtəşəm uğursuzlar: Fərqli dünyalar" (Wonderful losers: A different world) filminin təqdimatı olub. AZƏRTAC xəbər verir ki, Kann film festivalında nümayiş olunan ekran əsərinin Bakıda təqdimatı Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə reallaşıb.

Filmin təqdimatından əvvəl Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, xalq artisti Şəfiqə Məmmədova çıxış edərək ölkəmizdə belə ekran əsərlərinin təqdimatını yüksək qiymətləndirib. Ekran əsərinin bir sıra festivallarda, o cümlədən Kann film festivalında maraqla izlənildiyini deyən xalq artisti filmin ölkəmizdə kinosevərlərə təqdim edilməsində zəhməti olan hər kəsə minnətdarlığını bildirib.

Şəfiqə Məmmədova, Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin quruma üzv ölkələrin səfirlikləri ilə birgə təşkil etdiyi 9-cu Avropa Film Festivalına gələn Arunas Matelisin ölkəmizdə olmasından və belə bir ekran əsərinin Bakının ən aparıcı kino mərkəzlərindən birində nümayişindən məmnunluğunu ifadə edib və rejissora yaradıcılıq axtarışlarında uğurlar arzulayıb.

Hər kəsi salamlayan A.Matelis deyib: "Mənə bir rejissor kimi film barədə danışmaq çox çətindir. Ekran əsərinə tamaşaçılar qiymət verəcək. 8 il ərzində çəkilən bu film artıq "Oskar"a təqdim olunub. Uşaqlıqdan velosipedçi olmaq istəyirdim, çəkilişlərdə hər şeyin şahidi oldum. Bu filmi araşdırmağa başlayanda gördük ki, mövzuya sonuncu dəfə 1973-cü ildə toxunulub. Biz 5-8 il ərzində filmi çəkmək üçün razılaşmalar apardıq. Bu film velosport barədədir. Yarışlarda iştirak edən 95 faiz idmançı öz həyatını digər insanlara - qalib olanlara qurban verir. Biz İtaliyada film çəkilişlərinə razılıq əldə etmək üçün icazə aldıq. Bu barədə bütün media yazdı. Bu film qaliblər barədə deyil, əksinə, onlara kömək göstərən insanlar haqqındadır".





Son 3 il ərzində yeni nəsil rejissorların formalaşdığını söyləyən litvalı kinorejissor deyib ki, daha çox klassiklərin tərəfdarıdır. "Yeni nəsil litvalı rejissorların çəkdiyi filmlər beynəlxalq festivallarda iştirak edir. Bu film də Litvaya aiddir. Ekran əsəri beynəlxalq festivala hazırlandığı üçün subtitrlər ingilis dilindədir. 2017-ci ildə ekranlaşdırılan film Litva, Belarus, Estoniya, İtaliya və Polşada müxtəlif beynəlxalq festivalların laureatı olub",- deyə rejissor vurğulayıb.

Sonra kinosevərlər ekran əsərinə baxıblar.

# Sülh prosesinə zərbə vuran "sülhməramlılar"

Davamlı sülh və təhlükəsizliyin təmin olunmasında qadınların rolunun artırılmasının vacibliyi bütün dünya ictimaiyyətinə bəllidir. Beynəlxalq təşkilatlar bu məsələni daim gündəlikdə saxlamağa çalışaraq mövcud münaqişələrin həlli prosesində qadınların iştirakçılığının artırılmasına dair bir sıra sənədlər, o cümlədən 1325 saylı BMT qətnaməsini qəbul ediblər. Azərbaycan Respublikası da "Qadınlar Sülh və Təhlükəsizlik Gündəliyi"nin daim tərəfdarı olub və belə təşəbbüsləri dəstəkləməkdədir. Çünki yalnız beynəlxalq hüquqa əsaslanan öhdəliklərin, vəzifələrin və məsuliyyətlərin müəyyənləşdirilməsi şərti ilə həyata keçirilən "sülhməramlı fəaliyyət"in faydalı ola biləcəyinə ümid edir.



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Milli Məclis Sədrinin müavini Bahar Muradova deyib.

Bahar Muradova bildirib ki, sülhməramlılıq özü-özlüyündə yalnız gözəl sözlər, cazibədar şüarlardan ibarət olmayıb, səbəb və nəticələri təsdiqini tapmış problemlərin həlli üçün hədəfləri və fəaliyyət istiqamətləri dəqiq şəkildə müəyyən edilmiş, iştirakçı və təşəbbüskarlarının qərəzsizliyinə, bitərəfliyinə öz maraq və faydalarının üstün tutulmasına şübhə doğurmayan bir şəkildə həyata keçirməlidir.

"Gəlin baxaq, Ermənistan baş nazirinin həyat yoldaşı və onu müşayiət edən Rusiya Federasiyası vətəndaşlarının Azərbaycanın işğal olunmuş ərazilərinə etdikləri səfər bu kriteriyalara nə dərəcədə cavab verir? Ümumiyyətlə, bu səfəri "sülhməramlı" adlandırmaq olarmı? - Əlbəttə ki, yox. Yalnız ona görə yox ki, bu ərazilərə edilən səfərlər Azərbaycanın ərazi bütövlüyü, suverenliyinə dair mövcud qanunların kobud şəkildə pozulmasıdır. BMT-nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair məlum dörd qətnaməsinin, eləcə də digər beynəlxalq təşkilatların münaqişənin həllinə dair qəbul etdikləri sənədlərin münaqişə tərəfi kimi Ermənistanın üzərinə qoyduğu öhdəliklərə etinasız bir münasibətdir. Eləcə də Rusiya Dövlət Dumasının Beynəlxalq əlaqələr komitəsinin sədr müavini Svetlana Yurova və digərlərinin bu tərkibdə iştiraka cəlb olunması təəssüf doğurmaqla yanaşı, ATƏT-in Minsk qrupunun həmsədri olan Rusiyanın qərəzsiz və obyektiv vasitəçiliyinə inamın azalması ilə yanaşı, Azərbaycan və Rusiya arasında əlaqələrin hərtərəfli inkişafına kölgə salmaq məqsədilə Ermənistan tərəfinin humanizm və sülhə çağırmaq adı ilə pərdələnərək həyata keçirmək istədiyi məkrli planın tərkib hissəsidir.

Nəzərə alsaq ki, münaqişə və müharibədən ən çox əziyyət çəkən Azərbaycan tərəfidir, "Təmas xətti" adlandırılan, amma reallıqda "cəbhə xətti" Azərbaycan ərazisindədir. Bütün döyüşlər və onların dəhşətləri məhz Azərbaycan xalqına və ölkəmizə daha çox ziyan vurur. İyirmi beş ildən artıq bir müddətdə xanım Hakopyanın ölkəsinin silahlı qüvvələri işğalçı fəaliyyətini Azərbaycan torpaqları üzərində həyata keçirir. Elə həmin Hakopyanın və sülh danışıqları zamanı öz ölkəsini təmsil edən Ermənistanın baş naziri Paşinyanın oğlu öz hərbi xidmətini bu qüvvələrin sırasında Qarabağın və ətraf 7 rayonun işğal altında saxlanmasına həsr edilən təcavüzkar planların reallaşdırılmasında iştirak üçün göndərilib. Onda hansı sülhməramlılıqdan danışmaq olar?" - deyə Bahar Muradova diqqətə çatdırıb.

Milli Məclis Sədrinin müavini qeyd edib ki, məlum inqilab dalğasında Ermənistanda hakimiyyətə gələn bu cütlüyün öz ölkələrindəki qeyri-peşəkar, nəyin bahasına olursa-olsun öz siyasi ambisiyalarını gerçəkləşdirməyə yönəlik fəaliyyətlərini bu şəkildə beynəlxalq arenaya daşımaq istəkləri özü-özlüyündə sülhməramlılıq və onun mahiyyətinin kobud şəkildə təhrif olunmasıdır. Belə təşəbbüslər sülh danışıqları prosesinə mənfi təsir göstərməklə vəziyyətin daha da gərginləşməsinə səbəb olur və münaqişə tərəfləri kimi Ermənistan və Azərbaycan arasındakı mövcud atəşkəs rejiminin möhkəmləndirilməsi istiqamətindəki səyləri heçə endirir.

Bahar Muradova vurğulayıb ki, Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarına təşkil edilən belə səfərlər təkcə sülhməramlı deyil, həm də ümumiyyətlə, xoşməramlı olmayıb, Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə xidmət edir. Çünki haqqa, ədalətə, beynəlxalq hüquqa və qarşılıqlı məsuliyyətə əsaslanmayan belə "sülhyaratma missiyaları" yalnız qarşıdurmaya və müharibənin nəticələrinin möhkəmləndirilməsinə şərait yaratmaqla ölkələrin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin bölünməzliyi prinsiplərini pozmaqla ərazi işğalına haqq qazandırmaq və separatizmi təşviq etməkdir. "Odur ki, mən rusiyalı həmkarlarıma üzümü tutaraq onları sülhməramlılıq pərdəsinə bürünmüş belə bir avantürist fəaliyyətin tərkib hissəsi olmaqdan çəkinməyə çağırıram", - deyə parlament sədrinin müavini bildirib.

# Payız kəndlinin fəslidir

Dədə-babadan kəndlinin fəsli payız olub. Ömrünü və özünü torpağa, əkin-biçinə, mal-qaraya bağlayan kənd adamı bütün ümidlərini payıza bağlayıb, irili-xırdalı xərclərini el arasında bolluq rəmzinə çevrilmiş bu fəslə saxlayıb. Bu mənada hətta "cücələrini də payızda sayan" kəndli üçün payız ötən ildən tikintisi yarımçıq qalmış təzə evinə köçmək, nişanlı övladlarına cer-cehiz, qır-qızıl almaq üçün həm də bərəkət fəslidir.

Çünki ilin 9 ayını işləyən kənd adamı çəkdiyi zəhmətin maddi qarşılığını, sözün birbaşa və dolayısı mənasında əkdiyi məhsulun əvəzini bu fəsildə görür. İlin-günün "yığıb gətirən" vədəsinə "qızıl payız" deyənlərin bəlkə də yarpaqların saralmasına yox, buna işarə vurduqlarını iddia etmirik. Amma kəndli üçün payızın məhz bu səbəbdən "qızıl fəsil" olduğuna da şübhəmiz yoxdur.

* * *

Bu günlər kimin kəndə yolu düşərsə, getdiyi ünvanda çətin ki, adam tapsın. Hamı çöldə, tarlada, bağda məhsul yığımındadır. Aran yerlərində pambığın, şəkər çuğundurunun, tərəvəzin, mer-meyvənin, dağlıq və dağətəyi ərazilərdə üzümün, tütünün, fındığın, cənub bölgəsində sitrusun yığımının qızğın vaxtıdır. Şükürlər olsun, Azərbaycanın elə iqlimi, elə torpağı var ki, ilin bütün fəsillərində heç nədən - meyvədən, tərəvəzdən, bostandan korluq çəkmirik. Üstəlik, xüsusən son illər ölkə ərazisində geniş yayılmış istixanalarda iş bir gün, bir saat da olsa dayanmır. Bu hesaba həm kənd adamları yaxşı dolanır, həm də yerli istehlak bazarı ilboyu təzə tərəvəzlə təmin olunur, özü də ekoloji cəhətdən təmiz tərəvəzlə.

* * *

Ölkədə taxıl yığımı demək olar yekunlaşıb. Fermerlərimiz bu mövsüm 1,04 milyon hektardan 3,06 milyon tondan çox məhsul götürmüşlər ki, bu da ötən ildəkindən 13,5 faiz çoxdur. Məhsuldarlıq 29,2 sentner olmuşdur. Bundan əlavə, ölkə üzrə məhsulu toplanmış 12,8 min hektardan 81,4 min ton (hər hektardan orta hesabla 63,8 sentner) qarğıdalı yığılmışdır. Bu hesaba, yəni qarğıdalı da daxil olmaqla taxıl istehsalı 3 milyon 117,7 min tona çatmışdır.

Lakin bu, daxili tələbatı ödəmək baxımından azdır. İndiki siyasi-hərbi cəhətdən qarışıq və ekoloji-iqlim cəhətdən sürprizlərlə dolu zamanda taxıl kimi strateji məhsul sarıdan idxala möhtac olmaq qətiyyən arzuedilməzdir.

Bu amillərin üzərinə ölkədə aqrar sektorun, xüsusən də taxılçılığın inkişafı üçün dövlət tərəfindən görülən tədbirləri, o cümlədən olunan güzəştləri, verilən subsidiya və yardımları da gəlsək, onda daxili tələbatın yerli istehsal hesabına hələ də ödənilməməsi yalnız subyektiv səbəblərlə izah edilə bilər. Başqa necə izah edəsən ki, taxılçılıqda məhsul istehsalını artırmaq üçün əsas şərt sayılan suvarmaya hər il dövlət büdcəsindən milyonlarla manat vəsait ayrılır, bu hesaba əkin sahələrinin həcmi min hektarlarla artır, amma yenə də aşağı-yuxarı 3 milyon ton səddini keçə bilmirik. Yəqin ki, dövlətin bu qədər güzəşt və yardımlarından, çəkdiyi xərclərdən səmərəli istifadə olunsaydı, Azərbaycan nəinki taxıl idxal edərdi, hətta özü ixracatçıya çevrilərdi.

Amma "ümid sonda ölür" deyirlər. Son vaxtlar kənd təsərrüfatında aparılan islahatlar, o cümlədən yaradılan iri aqrar sənaye kompleksləri və həmin komplekslərdə əldə olunan yüksək məhsuldarlıq, səmərəlilik və s. yaxın zamanlar bu sahədə vəziyyətin hədəflənən səviyyədə olacağına ümid yaradır. Bu ümidi doğuran digər səbəb isə Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyinə dövlət başçısının seçimi ilə təşəbbüskar, işgüzar, yenilikçi gənc kadrların gətirilməsidir.

* * *

Amma bütün hallarda Dövlət Statistika Komitəsinin (DSK) kənd təsərrüfatı məhsullarının istehsalı üzrə son (yanvar-avqust ayları ərzində) hesabatına nəzər salanda adam torpağımızın bərəkətinə heyran qalmaya bilmir. Nələr yetişmirmiş bu kiçik torpaqda. Üstəlik, hələ torpağımızın neçə-neçə nemətləri var ki, onların istehsalı haqqında məlumat statistikaya düşmür.

Beləliklə, DSK-nın ötən ayın əvvəlinə olan son məlumatına görə, ölkə üzrə sahələrdən 1,1 milyon tondan çox tərəvəz, 643 min ton kartof, 372 min ton bostan, 362 min ton meyvə və giləmeyvə, 38 min ton üzüm, 695 ton yaşıl çay yarpağı, 90,3 min ton şəkər çuğunduru, 21 min ton günəbaxan, 157 ton pambıq, 3 min ton tütün və s. məhsullar yığılmışdır.

Təbii ki, bu rəqəmlərin bir çoxu son göstərici deyil. Xüsusən indi sürətlə yığımı davam edən pambığın, üzümün istehsalında kifayət qədər artım var. Ayrı-ayrı rayonlardan gələn informasiyalara əsaslanıb demək olar ki, bu mövsüm də həm pambıqçılıqda, həm də üzümçülükdə nəzərdə tutulan proqnozlara əməl ediləcək. Çünki hər iki sahə gəlirlidir və üstəgəl dövlət həmin sahələrin inkişafı üçün öz tərəfindən nə lazımdırsa edir. Bu isə istehsalçılarda əlavə stimul yaradır. Belə stimul yaradan şərtlərdən biri də bu gün pambıq əkib-becərənin bütün ilkin xərclərinin emal müəssisələri tərəfindən qarşılanmasıdır. Razılaşaq ki, emalçılarla belə əməkdaşlıq ilk növbədə istehsalçılar üçün sərfəlidir. Xüsusən o baxımdan ki, istehsalçının əlində olan vəsaiti başqa istehsal sahəsinə, məsələn, heyvandarlığa yönəltməyə imkan yaranır.

* * *

Söz ki heyvandarlıqdan düşdü, yenə də kənd gəlib durur adamın gözünün qarşısında. İnanmırıq ki, yolu bircə dəfə kəndə düşən kimsə malqaranın səhərlər çölə, axşamlar isə evə dönmə mənzərəsini yaddan çıxara. Yəqin ki, naxırın, sürünün kənd yollarında qopardığı toz-dumanın, səs-küyünün ayrı ləzzəti olduğunu heç kəs danmaz. Hələ hər heyvanın sakitcə öz həyətinin qapısını başı ilə açıb, içəri keçib sahibinə gəldiyini "xəbər" verməsini demirik.

Bu gün Azərbaycanda heyvandarlıq gəlirli sahədir. Özü də bunun səbəbi təkcə ölkədə heyvandarlıq məhsullarının baha olması deyil. Əsas səbəb odur ki, dövlət bu sahəyə də lazım olan güzəştləri edir. Təkcə kənddə heyvandarlıqla məşğul olanların bütün vergilərdən azad edilmələrini xatırlatmaq kifayətdir. Yalnız bunun özü dövlətin xeyirxah niyyətindən xəbər verir.

Düzdür, hələlik istehlakçıların xeyrinə işləməli olan həmin xeyirxah niyyət istənilən nəticəni vermir. Həm obyektiv, həm də subyektiv səbəblər üzündən istehlak bazarında heyvandarlıq məhsullarının qiymətləri bahadır. Bundan əlavə, taxılçılıqdakı kimi, bu sahədə də idxaldan tam xilas ola bilməmişik.

* * *

Bəs, bu barədə statistika nə deyir? Dövlət Statistika Komitəsinin son məlumatına görə, cari ilin yanvar-avqust aylarında ölkə üzrə diri çəkidə ət istehsalı 3,3 faiz artaraq 322,9 min, süd istehsalı 1,2 faiz çoxalaraq 1 milyon 365,3 min ton olmuşdur. Yumurta istehsalı isə 1,1 milyard ədədə çatmışdır ki, bu da 0,7 faizlik artım deməkdir. Baramaçılığı da bura əlavə etsək (cari ildə ölkə üzrə 514 ton barama istehsal olunmuşdur ki, bu da son 20 ilin ən yüksək göstəricisidir) görərik ki, heyvandarlıq sahəsində də istehsal artmağa başlayıb və bu, nikbin proqnozlar söyləməyə əsas verir.

Yeri gəlmişkən qeyd edək ki, cari ilin 8 ayı ərzində ölkə üzrə ümumilikdə kənd təsərrüfatı məhsulları istehsalında 4,2, o cümlədən bitkiçilikdə 5,8, heyvandarlıqda 2,6 faiz artım qeydə alınmışdır.

* * *

İndi isə kəndlinin fəslidir. Yəni bu rəqəmlər hələ artacaq və artdıqca kəndlinin əhvalı yüksələcək. Elə bu yüksək əhvalla o, xərcini-qazancını hesablayıb "Allah bərəkət versin" deyərək ehtiyatını ayırandan sonra yazdan planlaşdırdığı işlərini görməyə başlayacaq - oğul evləndirəcək, qız köçürəcək, ev tikəcək...

***Raqif MƏMMƏDOV,***
***"Azərbaycan"***

# Buraxılış və qəbul imtahanlarının yeni modeli açıqlandı

*Bütün qruplar üzrə təqdim edilən suallar qapalı, açıq və mətn əsasında yazılması tələb olunan 3 tapşırıq şəklində olacaq*

Dövlət İmtahan Mərkəzi (DİM) və Təhsil Nazirliyi tərəfindən birgə hazırlanan, 2019-cu ildə tətbiqi nəzərdə tutulan buraxılış və ali təhsil müəssisələrinə qəbul imtahanlarının yeni modeli açıqlanıb.

## 9 illik təhsil bazasından buraxılış imtahanı iki mərhələdə keçiriləcək

Yeniliklərə əsasən, 9 illik təhsil bazasından buraxılış imtahanı iki, 11 illikdən isə bir mərhələdə keçiriləcək. I mərhələdə şagirdlərə tədris dili sayılan Azərbaycan və yaxud rus dili, riyaziyyat və xarici dillər (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri) üzrə ümumilikdə 45 tapşırıq təqdim ediləcək.

Azərbaycan dili (rus dili) üzrə bədii, publisistik üslubda 2 mətn təqdim ediləcək və hər mətnə aid 5-i açıq, 5-i qapalı olmaqla 10 tapşırıq veriləcək. Riyaziyyat fənni üzrə həllin yazılması tələb olunan 10 açıq tapşırıq, xarici dillər üzrə isə publististik və ya dialoq olmaqla dinləmə mətninə dair 4-ü qapalı, 2-si açıq şəkildə 6 tapşırıq, oxuyub anlama mətninə dair isə 5-i qapalı, 4-ü açıq olmaqla ümumilikdə 9 tapşırıq təqdim ediləcək. Buraxılış imtahanının 2 saat 15 dəqiqə müddətində nəzərdə tutulan ikinci mərhələsində isə hər fənn üzrə ümumilikdə 90 qapalı sual ( tədris dili-30, riyaziyyat - 30, xarici dil - 30) təqdim olunacaq. İmtahan müddəti 3 saatdır.

Birinci mərhələdə şagirdlərin toplaya biləcəyi maksimal bal 30, ikinci mərhələdə isə 70 baldır.

## Şagirdlərə tapşırıqları yekunlaşdırmaq üçün cəmi 3 saat veriləcək

Tətbiq ediləcək yeniliklərə əsasən, 11 illik təhsil bazasından buraxılış imtahanı bir mərhələdə keçiriləcək. I qrup üzrə riyaziyyat, fizika və kimya fənlərinin hər birinə ayrı-ayrılıqda 30 tapşırıq ayrılacaq. Hər 30 tapşırığın 22-si qapalı, 5-i açıq, 3-ü isə situasiya əsasında həllinin yazılması tələb olunan şəkildə olacaq.

II qrup üzrə də riyaziyyat, coğrafiya və tarix üzrə ümumilikdə 90 tapşırıq təqdim olunacaq və tapşırıqlar 22 qapalı, 5 açıq və 3-ü situasiya əsasında həllinin yazılması tələb olunan tapşırıq formatında olacaq.

III qrup üzrə isə Azərbaycan (rus) dilindən 30, tarixdən 30 və ədəbiyyatdan 30 olmaqla ümumilikdə 90 tapşırıq təqdim ediləcək. Tapşırıqlardan 22-si qapalı, 5-i açıq, 3-ü isə mətn əsasında yazılması tələb olunan tapşırıq olacaq. IV qrup üzrə şagirdlər biologiya, kimya, fizika fənləri üçün təqdim edilmiş ümumi 90 sualı cavablandırmalıdırlar. Yenə də suallar qapalı, açıq və situasiya əsasında həllinin yazılması tələb olunan şəkildə olacaq. Şagirdlərə tapşırıqları yekunlaşdırmaq üçün cəmi 3 saat veriləcək. Bu, imtahan üçün maksimal 300 bal təşkil edir.

## Qəbul imtahanlarının yeni modeli

2019-cu ildə tətbiqi nəzərdə tutulan ali təhsil müəssisələrinə qəbul imtahanlarının yeni modelinə əsasən, imtahan müddəti 3 saat nəzərdə tutulub. I qrup üzrə riyaziyyat 30, fizika 30, kimya 30 olmaqla ümumilikdə 90, II qrup üzrə də riyaziyyat, coğrafiya, tarix fənlərindən ümumilikdə eyni sayda tapşırıq nəzərdə tutulub.

III qrup üzrə Azərbaycan (rus) dili 30, tarix 30, ədəbiyyat 30 tapşırıq təqdim ediləcək. IV qrup üzrə də biologiya, kimya, fizika fənlərindən ümumilikdə 90 sual olacaq və bütün qruplar üzrə təqdim edilən suallar 22 qapalı + 5 açıq + mətn əsasında yazılması tələb olunan 3 tapşırıq şəklində olacaq. Abituriyentlərin toplaya biləcəyi maksimum bal isə 400 baldır.

## Universitetə qəbulda buraxılış imtahanının nəticələri də nəzərə alınacaq

I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olunmaq üçün müsabiqə zamanı abituriyentlərin buraxılış imtahanından əldə etdikləri nəticələri də nəzərə alınacaq və qəbul imtahanından toplanılan balın üzərinə əlavə ediləcək.

Yəni abituriyentlər buraxılış və qəbul imtahanlarında topladıqları balların cəminə (maksimal bal - 300+400=700 bal) əsasən ali təhsil müəssisələrinin müsabiqəsində iştirak edəcəklər. I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olunmaq istəyən əvvəlki illərin məzunları seçdikləri ixtisas qrupuna daxil olan fənlərlə yanaşı buraxılış imtahanı formatında əlavə qəbul imtahanı da verəcəklər və hər iki imtahandan topladıqları balların cəminə əsasən ali təhsil müəssisələrinin müsabiqəsində iştirak edəcəklər.

V ixtisas qrupu (ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları) və orta ixtisas təhsili müəssisələri üzrə müsabiqə buraxılış imtahanının nəticələrinə əsasən aparılacaq.

## Bəs digər dillərdə tədris alan şagirdlər...

Tədris Azərbaycan dili istisna olmaqla, digər dillərdə aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər ümumi orta və tam orta təhsil səviyyələri üzrə buraxılış imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) fənnindən ayrıca imtahan verirlər. İmtahanda şagirdlərə Azərbaycan dili (dövlət dili kimi) fənnindən 30 tapşırıq təqdim edilir. Şagirdlərin toplaya biləcəyi maksimal bal 30 baldır. İmtahanın müddəti 45 dəqiqədir.

Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər buraxılış imtahanının nəticələrinə əsasən, ali və orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər buraxılış imtahanının nəticələrinə əsasən, ali və orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün Azərbaycan dili fənnindən imtahan verməlidirlər.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Paşinyan bu dəfə parlament çevrilişi edir

## Sarkisyan-Koçaryan birliyini sonuncu müttəfiqləri də tərk edir

*Əvvəli 1-ci səh.*

İnsanları parlamentə aparmaq, həmkarlarını təhdid etmək, məhkəmə sistemini təzyiq altında saxlamaq düzgünlükdür? Əgər bütün bunlardan sonra onlar hələ də belə fikirləşirlərsə, mənim düzgünlük anlayışımla onlarınkı fərqlidir".

Şarmazanov əlavə edib ki, Ermənistanda nə etməsindən asılı olmayaraq, hamının düzgün hesab etdiyi insan olmamalıdır: "Stalin də belə bir şəxsiyyət arzu edirdi. Biz hara gedirik?!".

Mətbuat katibinin sözlərinə görə, Ermənistanın sonu çatıb: "Ermənistanda konstitusiya prinsiplərini və hakimiyyət bölgüsünü zorakılığa məruz qoydular. Ermənistanda ilk dəfə icra hakimiyyəti qanunverici hakimiyyətin ərazisinə soxuldu. Ermənistanda plüralizm öldü. Bizdə baş nazir deyil, diktator olacaq. Siz bunu istəyirdiniz? Zövq alın. Reallıqda Ermənistanın indiki hökuməti gözəl şüarlar, demaqogiya, selfidən başqa heç bir iş görmür".

### Daşnaklar razılığa gəlmədilər

Paşinyan isə öz növbəsində bəyan edir ki, Respublika Partiyası mövcud siyasi vəziyyəti dərk etməməkdə israrlıdır və ölkədə gərginliyin artmasına şərait yaradır. Onu qorxudan daha bir məqam budur ki, respublikaçılar baş nazir postuna öz namizədini irəli sürməyə hazırlaşırlar.

Paşinyan buna imkan verməyəcəyini bildirib: "Sanitek" zibilxanasından çıxmaq olar, amma tarixin zibilliyindən yox. Gəlin, fantastika janrında fərziyyə qurmayaq. Çünki xalq və biz heç kimə bu imkanı verməyəcəyik. Əgər kimsə xalqa problem yaratmaq rolunu öz üzərinə götürmək və xalqa mane olmaq qərarına gəlibsə, xalq özü həmin problemin ləğvi yolunu tapacaq. Mən özümü bu prosesin qarantı hesab edirəm".

Paşinyan "Çiçəklənən Ermənistan" və "Daşnaksütyun" partiyalarını Respublika Partiyasından aralamağa çalışır. Bu xüsusda erməni mediası yazır ki, "Çiçəklənən Ermənistan" partiyasının lideri, erməni oliqarx və milyonçu Haqik Tsarukyan Paşinyanın yanında yer almağa qərar verib.

Elə Nikol Paşinyan da bildirir ki, parlamentdə böyüklüyünə görə ikinci fraksiya olan "Çiçəklənən Ermənistan" partiyasının lideri ilə dekabrda erkən parlament seçkilərinin keçirilməsi haqqında razılığa gəlib: "Çiçəklənən Ermənistan" partiyasının sədri Tsarukyanla 2018-ci ilin dekabrında növbədənkənar parlament seçkilərinin keçirilməsi barədə memorandum imzaladım".

Memoranduma görə, Tsarukyanın partiyası üzərinə Paşinyanın istefasından sonra baş nazir vəzifəsinə namizəd irəli sürməyəcəyini, eləcə də başqa namizədi dəstəkləməyəcəyini öhdəsinə götürür. Mətndə həmçinin qeyd edilir ki, "Tsarukyan" fraksiyası parlamentdə başqa partiyadan namizədin irəli sürülməsi üzrə təşəbbüslərinə qatılmayacaq.

Bundan başqa, Nikol Paşinyan "Daşnaksütyun" Partiyası Ali Şurasının üzvü Arsen Ambartsumyanla da görüşüb. Amma daşnaklar hələ ki, Paşinyanla eyni mövqeni bölüşmürlər.

### 14 deputat Paşinyanın tərəfinə keçdi

Bütün manelərə baxmayaraq Paşinyan parlamentdəki müxaliflərini zərərsizləşdirməkdə, Serj Sarkisyanın mövqelərini sarsıtmaqda davam edir. Belə ki, dünən bir qrup deputat da seçkilərin dekabr ayında keçirilməsinin vacibliyini vurğulayaraq bəyanat imzalayıb. "Biz növbədənkənar seçkilərin dekabr ayında keçirilməsi ilə bağlı hökumət başçısı Nikol Paşinyanın mövqeyini müdafiə edirik" bəyanatı ilə çıxış edən Ermənistan Milli Məclisinin bir qrup deputatı qeyd edib ki, Paşinyanın istefasından sonra və seçkilərə qədər yeni baş nazir seçilməməli, hazırkı parlament isə buraxılmalıdır.

Bəyanatı aralarında Aşot Arsenyan, Alik Sarkisyan, Artak Sarkisyan və Arman Saakyan olmaqla ümumilikdə 14 nəfər imzalayıb.

### "Kütlə istənilən anda baş naziri endirə də bilər"

Rusiyalı ekspert Dmitri Verxoturov bildirir ki, bu durumda Ermənistanda qeyri-sabit vəziyyət kəskin siyasi rəqabət fonundan yenidən ciddi iğtişaşlara səbəb ola bilər. Ermənistanın hazırkı rəhbərliyi ilə keçmiş hakimiyyət arasındakı münaqişədən danışan Verxoturov bildirib ki, əvvəlki iqtidar hələ ki, ən mütəşəkkil qüvvədir, çünki onların hakim sistemdə möhkəm mövqeləri və böyük dəstəyi var. Rusiyanın Elmi Tədqiqatların Dəstəklənməsi Fondunun ekspert şurasının sədri Qriqori Trofimçuk isə qeyd edir ki, yaranmış durumda Ermənistanda xaos yüksələn xətt üzrə inkişaf edir: "Oktyabr ayınadək Ermənistanın yeni baş naziri Nikol Paşinyana öz öhdəliklərini yerinə yetirməkdə heç kim mane olmurdu və o, bu müddətdə əsas sahələrdə həyat səviyyəsini yaxşılaşdıra, o cümlədən tariflərin endirilməsinə nail ola bilərdi. Ancaq bu, baş vermədi və parlamentin yeni tərkibi ilə də baş verə bilməzdi. Buna görə Ermənistanda xaos yüksələn xətt üzrə inkişaf edir. Bu, o deməkdir ki, Ermənistana sabitliyin qayıtması üçün uzun müddət lazımdır. Və burada əsas problem Respublika Partiyasında deyil. Kütlə istənilən anda baş naziri endirə bilər".

Bütün bunlar bir daha Ermənistanda gərgin vəziyyətin davam edəcəyini aydın nümayiş etdirir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 30 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğal altında olan Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 10-da Goranboy rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller aparacaqlar.

Elm xadimləri





Həyatda elə insanlar olur ki, onların ömrü parlaq bir səma cisminin uçuşuna bənzəyir: qısa, sürətli, lakin olduqca dolğun, mənalı, gözəl bir həyat yolu keçirlər. Və öz varlıqları ilə yaşam tərzlərini o qədər zənginləşdirir, həyatda elə dərin izlər buraxır, özləri haqqında o qədər xoş təəssürat yaradırlar ki, onların yoxluğu ilə heç vəchlə barışmaq olmur, bu yoxluq uzun zaman həmin insanları tanıyanları için-için ağrıdır. Belə şəxsiyyətlərdən biri də Aida İmanquliyevadır - görkəmli şərqşünas-alim, mahir elm təşkilatçısı, istedadlı pedaqoq, bənzərsiz xanım, vəfalı həyat yoldaşı, fədakar ana. Aida xanımın həyatdan getməsi bizim institut üçün çox böyük itki oldu, bu itki ilə hələ də barışa bilmirik və onun ağrı-acısını indi də duyuruq. Hər işdə, hər tədbirdə yeri görünür Aida xanımın. Düşünürsən, sağ olsaydı öz biliyi, bacarığı, təmkini ilə bu işlər, tədbirlər daha gözəl alınardı.

# Hər əsəri yeni bir tapıntı idi

Dərin nəzəri bilikləri, analitik təfəkkürü, yüksək erudisiyası, geniş mütaliəsi, bir neçə Şərq və Qərb dilini bilməsi sayəsində apardığı tədqiqatlar, yazdığı əsərlər qısa bir vaxtda ona nəinki keçmiş Sovetlər Birliyində, hətta əksər xarici ölkələrdə böyük şöhrət qazandırmışdır. Hər əsəri elmdə yeni söz, yeni tapıntı idi. Görkəmli şərqşünas-alim Azərbaycanda ərəbşünaslıq üzrə ilk filologiya elmləri doktoru, professor idi.

Aida xanım elmin enişli-yoxuşlu yollarını pillə-pillə keçmiş, öz zəhməti, istedadı, zəkası, qabiliyyəti sayəsində kiçik elmi işçidən baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinədək yüksəlmişdi.

1989-cu ildə Tbilisi şəhərində müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru dərəcəsi və tezliklə bu ixtisas üzrə professor adı almışdır.

Üç monoqrafiya (“Mixail Nüaymə” və “Qələmlər birliyi”, 1975, “Cübran Xəlil Cübran”, 1975, “Yeni ərəb ədəbiyyatının korifeyləri”, 1991) və 70-dən artıq elmi məqalənin müəllifi olan Aida İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru olmuşdur. Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən “Asiya və Afrika xarici ölkə xalqları ədəbiyyatı” ixtisası üzrə Müdafiə Şurasına sədrlik etmişdir. O, Azərbaycan şərqşünaslıq elmini dəfələrlə yaxın və uzaq xarici ölkələrdə - Moskva, Kiyev, Poltava, Sankt-Peterburq, Hamburq, Halle və s. yerlərdə təmsil etmişdir.

Görkəmli alim elmi-təşkilati fəaliyyətində yüksək ixtisaslı ərəbşünas kadrların hazırlanmasını daim diqqət mərkəzində saxlamışdır. Onun rəhbərlik etdiyi “Ərəb filologiyası” şöbəsində qısa müddətdə 10-dan artıq namizədlik dissertasiyası müdafiə olunmuşdur. Aida xanım Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Azərbaycan Yazıçılar Birliyinin üzvü idi.

Eyni zamanda Aida xanım uzun illər pedaqoji fəaliyyətlə səmərəli məşğul olmuş, Azərbaycan Dövlət Universitetində (indi BDU) ərəb ədəbiyyatı fənnindən mühazirələr oxumuşdur.

Professor A.İmanquliyeva Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. O, Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürür, mədəni tərəqqini şərtləndirən amillərə istinad edirdi. Alimin tədqiqatları nəticəsində mütləq bir həqiqət müəyyənləşmişdir: Şərqin bir çox ölkələrinin müasir inkişafı bir həqiqəti ortaya qoyur - Qərbin mədəni dəyərləri o zaman yerli zəmində kök sala və onu zənginləşdirə bilər ki, onlar Şərq ənənəsinə və milli xarakterə uyğun formalarda əxz edilsin. Aida xanımın çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması araşdırılır ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Bir vaxtlar Qərb və Şərq mədəniyyətlərinin qarşılıqlı əlaqə və təsirinin tədqiqi hakim ideologiyanın tələblərinə uyğun olaraq ciddi təhriflərə məruz qalırdı. Şükürlər olsun ki, o zamanlar artıq arxada qalıb, ön plana isə qarşıdurma yox, sivilizasiyaların dialoqu və ortaq mədəni-mənəvi dəyərlər çəkilib. Lakin elə o dövrdə yetişən və alim kimi formalaşan nadir istedad sahibləri vardı ki, zamanı qabaqlayaraq problemə ideoloji aspektdən fərqli olaraq universal modellər, ümumbəşəri dəyərlər müstəvisində yanaşırdılar. Professor Aida İmanquliyeva məhz belə alim-tədqiqatçılardan idi.

Bir alim kimi Aida xanımın maraq dairəsi geniş və çoxşaxəliydi. Bununla belə, onun elmi fəaliyyətinin əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı idi.

XIX əsrin axırlarında bir çox ərəb ölkələrinin, ilk növbədə Livanın ictimai-siyasi-iqtisadi həyatında müşahidə edilən problemlər insanları vətəni tərk edib kütləvi şəkildə Amerikaya üz tutmağa vadar etdi. Yaradıcı ziyalıların ABŞ-a, xüsusilə də Nyu-York şəhərinə mühacirəti ilə ərəb məhcər ədəbiyyatının təşəkkülü başladı ki, bu da nəticədə yeni ərəb ədəbiyyatının formalaşmasında əhəmiyyətli rol oynayan xüsusi və özünəməxsus “Suriya-Amerika məktəbi”nə çevrildi. Ərəb ədəbiyyatını fəal şəkildə əcnəbi ədəbiyyatların təcrübəsinə qoşmaq yolu ilə onu yeniləşdirmək rolu “Suriya-Amerika məktəbi”nin aparıcı nümayəndələrinin üzərinə düşdü.

Aida xanımın çoxsaylı və gərgin araşdırmaları sayəsində bir çox nəticələr əldə edilmişdir: Ərəb məhcər ədəbiyyatı yazıçılarının yaradıcılığının əhəmiyyəti ondadır ki, onlar Avropa və Amerika ədəbiyyatının etik və bədii dəyərlərini yenilik ruhunda əxz edib mənimsəmiş və yeni formada ifadə etmiş, onların nailiyyətlərinin ən yaxşı milli ənənələrlə sintezdə təcəssümünü irəli sürmüşlər. “Suriya-Amerika məktəbi”nin ən istedadlı təmsilçiləri əcnəbi ədəbiyyatlarının məhz ərəb ölkələrinin ən mühüm ictimai inkişaf tələblərinə cavab verən nailiyyətlərini mənimsəmişdilər. Bu ədiblərin fəaliyyəti sayəsində XX əsrin əvvəllərində ərəb ədəbiyyatı regional birliklər çərçivəsində qapanıb qalmaq ənənəsini dəf edə və dünya ədəbi prosesinə fəal şəkildə qoşula bilmişdir. “Suriya-Amerika məktəbi” yazıçılarının yaradıcılığı qeyri-adi vəziyyətin nümunəsi oldu - onun əlaqə dairəsinə eyni vaxtda üç ənənə: “göl məktəbi”, Amerika transsendentalizmi və rus ədəbiyyatının tənqidi realizmi daxil oldu. Bunları təhlil edən tədqiqatçı yazırdı: “Ədəbi faktların təsviri, müqayisəli təhlili və öyrənilməsi yeni ərəb ədəbiyyatının formalaşmasına dair təsəvvürləri nəinki genişləndirir, həm də Şərqin yeni ədəbiyyatının tarixi inkişafının mürəkkəb və ziddiyyətli formalarının tipoloji baxımdan həqiqi mənzərəsini canlandırdı. “Suriya-Amerika məktəbi”nin adı çəkilən üç cərəyanla təmasının nəticəsi burada müəyyən bədii metodların formalaşması oldu: “göl məktəbi” və transsendentalizm Cübran və ər-Reyhaninin yaradıcılığında romantik metodun təşəkkül tapmasına səbəb oldusa, rus ədəbiyyatı ilə əlaqə və ünsiyyət isə realist Nüayməni formalaşdırdı”.

Tədqiqatçı məhcər ədəbiyyatının yaradıcılarının ədəbi-bədii üslubunun bütün incəliklərini tədqiqat obyektinə çevirir: “Mühacir yazıçılar yeni ədəbi üslubun yaradıcıları idilər. Onlar mümkün olan qədər bu üslubu arxaizmlərdən, ağır sintaktik quruluşlardan, müxtəlif növ süni bəzək yığınından azad etmişlər. Bununla bərabər, onlar ərəb klassik ədəbiyyatının ənənə və dəyərlərinə qayğılı münasibət nümayiş etdirmişlər”.

Alim ərəb məhcər ədəbiyyatının ən müxtəlif bədii üsluba malik nümayəndələrinin yaradıcılığını araşdırdı: Mixail Nüaymənin yaradıcılığında rus ədəbiyyatının təsiri ilə formalaşan tənqidi realizmi öyrəndi, Cübran Xəlil Cübranın yaradıcılığında ingilis poeziyasının təsiri ilə romantizm üslubunun inkişaf prosesini izlədi, Amerikan transsendentalistlərinin Əmin ər-Reyhaninin və digərlərinin yaradıcılığında oynadığı rolu müəyyənləşdirdi. Bu zaman o, yüzlərlə mənbəyə müraciət edir, yazıçıların əsərlərini təhlil edir, onların yaradıcılıq metodunu, dünyagörüşünü, nəsr və poeziya dillərinin təkamülünü, lirizmi, müxtəlif qəhrəman obrazlarının xüsusiyyətlərini tədqiq edir, dünya ərəbşünaslığında ilk dəfə olaraq ərəb-Amerika, Qərbi Avropa və rus ədəbi əlaqələrinin məğzi və əhəmiyyətini tam aşkara çıxarır, ərəb məhcər ədəbiyyatının ən görkəmli nümayəndələrinin bədii üslubunun formalaşmasında Qərb və rus ədəbiyyatlarından mənimsəmə prosesi və onun nəticələrini müəyyənləşdirir.

Tədqiqatçının gəldiyi qənaətə görə, ədəbi inkişaf prosesinin gedişində maarifçi didaktizm, sentimentalizm cizgiləri sözügedən ərəb yazıçıları tərəfindən aradan qaldırılmış, romantizm və tənqidi realizmin poetikası mənimsənilmişdir. Beləcə onlar içərisində olduqları tarixi gerçəkliyi əks etdirmək üçün çox zəruri olan yeni ideya və yeni formaları özündə daşıyan Qərb mədəniyyəti və ədəbiyyatının nailiyyətlərindən yaradıcı surətdə faydalanmışlar.

Bu yazıçıların hər biri öz yaradıcılıq metoduna xas olan etik və bədii dəyərlər ehtiyatını işə salaraq onu özünəməxsus şəkildə bədii təcrübədən keçirmişdir. Cübran və ər-Reyhani Qərb romantizminə müraciət etmişlər. Lakin ərəb romantik şairlərindən fərqli olaraq, bu yazıçılar romantizmin yalnız zahiri xüsusiyyətlərini mexaniki şəkildə qəbul etməmiş, onu yaradıcı metod kimi mənimsəmişlər, yəni onlara ərəb gerçəkliyinə öz münasibətlərini ifadə etmək imkanı verən yeni nəzər nöqtəsi kimi yanaşmışlar. Onlar ilk olaraq maarifçiliyin artıq daralmış çərçivəsini qıraraq romantizm cəbhəsinə keçmişlər. Cübranın və ər-Reyhaninin yaradıcılığında romantik istiqamət nəinki mənimsənilmiş, həm də zənginləşmiş və mürəkkəbləşmişdir. Bu, bir tərəfdən, ərəb ədəbiyyatının xüsusi ənənələri ilə Qərb romantizmi təcrübəsinin mürəkkəb sintezi nəticəsində, digər tərəfdən isə, hər iki sənətkarın fərdi istedadı sayəsində baş vermişdir. Beləcə onlar ümumbəşəri problemlərin qoyuluşu səviyyəsinə yüksəlmiş və dünya ədəbi prosesinin nəinki bərabərhüquqlu iştirakçısı olmaq, həm də yeni bədii dəyərlərin dünya ədəbiyyatına ötürücüsü kimi çıxış etmək imkanı qazanmışlar.

Aida xanım araşdırmalarının sonunda belə bir müddəa irəli sürür ki, ərəb ədəbiyyatı xarici ədəbiyyatların nailiyyətlərindən faydalanmaqda ilk növbədə məhcər ədəbiyyatının nümayəndələrinə borcludur. Məhcər yazıçıları Qərb ədəbiyyatının pozitiv təsiri orbitində olaraq onun ən yaxşı nailiyyətlərini mənimsəmiş və özlərinə məxsus şəkildə inkişaf etdirmişlər. Öz əsərlərində milli ruhu və milli koloriti qoruyub saxlaya bilən yazıçılar yeni ərəb ədəbiyyatının inkişafında əvəzsiz rol oynamışlar. Məhz bu ədiblərin yaradıcılığı sayəsində XX əsr ərəb ədəbiyyatının mövzu dairəsi genişlənmiş, janr quruluşu daha da rəngarəng olmuş, bədii ifadənin yeni formaları yaranmış və ərəb ədəbiyyatı ümumbəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Bütün bunlarla bərabər, Aida xanım tədqiqatlarında mövzu ilə əlaqəli ümumbəşəri elmi-ədəbi və fəlsəfi fikrində mövcud olan müxtəlif ideya cərəyanlarını, onların xüsusiyyətlərini, tətbiq sahələrini öyrənmiş və nəzəri təhlillər aparmışdır.

Aida xanımla 15 il birgə çalışan bir insan kimi bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Ulu Tanrı Aida xanımı yaradarkən çox səxavətli olmuş, ona şəxsi və intellektual keyfiyyətlərlə yanaşı, qibtəedici zahiri gözəllik də bəxş etmişdi. Onun gözəlliyini vəsf etmək üçün, bəlkə də, Füzuli qələmi, Ələsgər sözü gərəkdir. Aida xanımın həyatdan erkən getməsi onun həmkarlarını və tələbələrini hədsiz dərəcədə kədərləndirdi, sarsıtdı.

Gələn il görkəmli şərqşünas-alim, elm təşkilatçısı, pedaqoq, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın 80 illik yubileyidir. Yaşasaydı, ailəsi, həmkarları, tələbələri ilə birlikdə bu günü fərəhlə qarşılayardı. Çox təəssüf ki, onun ömür yolu qısa oldu. Amma onsuz ötən illər bir həqiqəti də ortaya qoydu: Aida xanım bizdən yalnız cismən ayrılıb. Adı dillərdən düşmür, xatirəsi ürəklərdən silinmir. Əsərləri dönə-dönə oxunur, təhlil və tədqiq edilir, tərcümə olunur, yenidən işıq üzü görür. Nə qədər ki onun alim qələmi ilə uğrunda mübarizə apardığı ideya və amallar aktuallığını itirməyib, nə qədər ki Şərq-Qərb münasibətlərində tam harmoniya bərqərar olmayıb, insanlar yenə və yenə də Aida İmanquliyevanın əsərlərinə müraciət edəcək, gələcək nəsillər onu daim minnətdarlıqla xatırlayacaq.

***Gövhər BAXŞƏLİYEVA,***
***AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik***

# Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında əlaqələr genişlənir

Ümumdünya beynəlxalq təşkilatları Azərbaycan dövləti ilə əlaqə qurmaqda çox maraqlıdırlar. Ölkə Prezidenti İlham Əliyevin apardığı müstəqil daxili və xarici siyasət sayəsində bu tərəfdaşların sayı ildən-ilə çoxalır. Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) arasındakı əməkdaşlıq buna bariz nümunədir. ÜST BMT sistemi çərçivəsində səhiyyə məsələlərini əlaqələndirən beynəlxalq qurumdur. 1948-ci ildə yaradılan bu təşkilat dünyanın inkişaf etmiş ölkələrinin timsalında səhiyyə üzrə rəhbər müddəa və standartlar hazırlayır, dövlətlərə səhiyyə sahəsindəki problemlərin həllində kömək göstərir, habelə səhiyyə sahəsində elmi tədqiqatları dəstəkləyir və təşviq edir. Bu təşkilata 194 dövlət üzvdür. Əsas orqanları Ümumdünya Səhiyyə Assambleyası, İcraiyyə Şurası və Katiblikdir. Baş Qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir. 6 regional ofisi var, dövlətlərlə əlaqələrini ofisləri vasitəsilə həyata keçirir.

25 ildən artıqdır ki, Azərbaycanın ÜST ilə sıx əməkdaşlıq münasibətləri mövcuddur. Əlaqələr təşkilatın Baş Qərargahı və Avropa üzrə Regional Ofisi vasitəsilə həyata keçirilir. Eyni zamanda, ÜST-ün ölkəmizdə ofisi fəaliyyət göstərir. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə bu münasibətlər yeni müstəviyə qədəm qoydu. Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində ÜST-lə əməkdaşlıq daha da möhkəmləndirilib. Bu, ilk olaraq özünü Ümumdünya Səhiyyə Assambleyasının, ÜST-ün İcraiyyə Şurası və Avropa Regional Ofisinin sessiyalarında, o cümlədən il ərzində keçirilən iclaslarında Azərbaycan nümayəndə heyətlərinin və ÜST nümayəndələrinin respublikamıza etdikləri rəsmi səfərlərdə özünü aydın büruzə verir.

ÜST-ün Avropa Regional Ofisinin direktoru 2000-ci və 2004-cü illərdə Azərbaycanda rəsmi səfərdə olub. 2005-ci ilin may ayında Cenevrədə keçirilmiş Ümumdünya Səhiyyə Assambleyasının 58-ci sessiyasında Azərbaycan Respublikası Avropa regionundan 2005-2008-ci illər üçün ÜST-ün İcraiyyə Şurasına üzv seçilib.

2006-cı il aprelin 25-26-da ÜST-ün keçmiş baş direktoru Li Yonq Vuk ölkəmizə rəsmi səfər edib. L.Y.Vuk Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilib. Nazirlər Kabinetində, Səhiyyə Nazirliyində, eləcə də Heydər Əliyev Fondunda keçirilmiş görüşlərdə iştirak edib. Sözügedən səfər çərçivəsində əsas diqqət quş qripi və vərəm xəstəlikləri ilə mübarizəyə, eşitmə qabiliyyəti olmayan və yaxud zəif olan insanların cəmiyyətdə rolunun artırılmasına, aclıq və yoxsulluğun aradan qaldırılması və səhiyyədə aparılan islahatlara yönəldilmişdi.

2006-cı il noyabrın 6-da Cenevrədə keçirilən ÜST-ün İcraiyyə Şurasının 119-cu sessiyasında, noyabrın 9-da isə Ümumdünya Səhiyyə Assambleyasının 1-ci fövqəladə toplantısında Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir. 2008-ci il yanvarın 30-dan fevralın 1-nə kimi ÜST-ün baş direktoru Azərbaycanda rəsmi səfərdə olmuşdur. Azərbaycanın ÜST ilə əməkdaşlığının mühüm nümunəsi kimi Avropa region ölkələrinin 50-dən artıq səhiyyə nazirinin iştirakı ilə 2011-ci ilin sentyabrında ÜST-ün Avropa Regional Komitəsinin 61-ci illik sessiyası Bakıda keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi bu tədbirdə bir sıra qlobal problemlər ətrafında müzakirələr aparılmış, “Səhiyyə 2020” sənədi qəbul edilmiş, XXI əsrdə səhiyyənin strateji istiqamətləri, sosial təsiri, qeyri-yoluxucu xəstəliklərlə mübarizə üzrə strategiya və digər qlobal məsələlərə dair qərarlar qəbul edilmişdi.

Daha sonra Bakıda Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və ÜST-ün birgə təşkilatçılığı ilə Avropa Ətraf Mühit və Səhiyyə üzrə Nazirlər Şurasının üçüncü görüşü keçirilmişdir. Görüşdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxış edərək 2011-ci ildə irəli sürdüyü “IDEA” (“International Dialogue for Environmental Action”) təşəbbüsü barədə məlumat vermişdir. Bundan əlavə, Azərbaycan nümayəndə heyəti ÜST-ün təşkilatçılığı ilə 2013-cü ilin mayında Cenevrə şəhərində keçirilən Ümumdünya Səhiyyə Assambleyasının 66-cı sessiyasında, habelə təşkilatın İcraedici Şurasının 133-cü sessiyasında, 2014-cü ilin yanvarında ÜST-ün Cenevrədə keçirilən İcraedici Şurasının 134-cü, həmin ilin mayında isə 135-ci sessiyasında, eləcə də Ümumdünya Səhiyyə Assambleyasının 67-ci sessiyasında yüksək səviyyədə təmsil olunmuşdur.

ÜST-ün Avropa Regional Komitəsinin Kopenhagendə keçirilmiş 59-cu sessiyasında Azərbaycan 3 il müddətinə (2009-2012-ci illər) qurumun Daimi Komitəsinə, Cenevrədə keçirilmiş Ümumdünya Səhiyyə Assambleyasının 58-ci sessiyasında Avropa regionundan 2005-2008-ci illər üçün ÜST-ün İcraiyyə Şurasına, daha sonra isə 2012-2015-ci illər üçün ÜST-ün İcraiyyə Şurasına üzv seçilmişdir.

Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə əsasən, ölkəmizin BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin fəaliyyətinin prioritetlərindən biri kimi ÜST ilə əməkdaşlıq ildən-ilə genişləndirilir, ÜST-ün bölmələri ilə yeni əməkdaşlıq münasibətləri qurulur, Ümumdünya Səhiyyə Assambleyasında, ÜST-ün İcraiyyə Şurasında, bu təşkilatın Avropa Regional Ofisinin sessiyalarında, komitə iclaslarında, o cümlədən il ərzində ÜST-ün təşəbbüsü ilə keçirilən iclaslarda ölkəmizin təmsilçilərinin fəal iştirakı təmin edilir.

ÜST-ün Avropa Regional Ofisinin baş direktoru və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi arasında imzalanmış 2012-2013-cü illər üzrə iki illik əməkdaşlıq sazişi ictimai sağlamlığın gücləndirilməsi, qeyri-yoluxucu xəstəliklər, sağlamlığın təşviqi və sağlam həyat tərzi, yoluxucu xəstəliklər, səhiyyə təhlükəsizliyi və ətraf mühit, habelə səhiyyə informasiyası, tədqiqatlar və innovasiya kimi sahələri müəyyən etmişdir.

ÜST tərəfindən Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi, ictimai sağlamlıq, uşaq və ana ölümünün qarşısının alınması və digər məsələlərlə bağlı çoxsaylı layihələr icra edilməkdədir. ÜST-ün təşkilatçılığı ilə həyata keçirilən DOTs *(Directly Observed Treatment-short course) layihəsi (layihə vərəm xəstəliyi ilə bağlı birbaşa həkim nəzarəti altında qısamüddətli müalicə kurslarının keçirilməsini nəzərdə tutur) çərçivəsində Bakı, Naxçıvan, Lənkəran, Xaçmaz, Gəncə, Sumqayıt, Sabirabad, Şəki və Mingəçevir şəhərlərində vərəm dispanserlərinə vərəm əleyhinə dərman vasitələri, rentgen aparatları, mikroskoplar və digər avadanlıqlar verilib.

MECACAR - poliomielitin ləğv edilməsi üzrə genişmiqyaslı proqram ölkəmizdə 1995-ci ildən həyata keçirilir. Proqrama BMT-nin Uşaq Fondu (UNICEF) da dəstək nümayiş etdirir. CARAK - uşaq və anaların qorunması üzrə proqram, eləcə də difteriyaya nəzarət üzrə proqram çərçivəsində paytaxtda və bölgələrdə tədris kursları təşkil edilib. Ailə planlaşdırılması üzrə proqramın həyata keçirilməsi üçün Gəncə və Sumqayıt şəhərləri seçilib. Ruhi sağlamlıq üzrə proqram çərçivəsində ölkəmizə humanitar yardım şəklində müxtəlif dərmanlar gətirilir. Yardım respublika Səhiyyə Nazirliyi tərəfindən pilot şəhər qismində Qubaya və digər rayonlara göndərilir.

ÜST ilə əməkdaşlıq çərçivəsində Cənubi Qafqaz Səhiyyə İnformasiya Sistemi layihəsinə əsasən respublika Səhiyyə Nazirliyinin özünün Səhiyyə İnformasiya Sisteminin yenidən qurulmasına və inkişafına lazımi kömək göstərilir.

Bu günlərdə ÜST-ün baş direktoru Tedros Adhanom Gebreyesus Bakıda rəsmi səfərdə olub. Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov ilə görüşüb.

Baş nazirin müavini qeyd edib ki, ölkəmizdə səhiyyənin yenidən qurulması və inkişaf etdirilməsi məqsədilə xeyli işlər görülüb. Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb və həmin qurumun daimi fəaliyyət göstərən katibliyi formalaşıb. Azərbaycan hökuməti Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün bütün qüvvələri səfərbər edib. Baş nazirin müavininin Milli Əlaqələndirmə Şurasına sədr təyin olunması bu məsələyə olan diqqətin göstəricisidir.

Görüşdə son illər Azərbaycanın səhiyyə sistemində həyata keçirilən layihələr, tibbi sığortanın əhəmiyyəti, infrastrukturun yenilənməsi barədə məlumat verilib və diqqətə çatdırılıb ki, bütün bunlar ölkə vətəndaşının səhiyyə xidməti ilə layiqli təmin olunmasına hesablanıb.

Daha sonra qonağa ölkəmizdə infeksion xəstəliklərin aradan qaldırılması məqsədi ilə görülən işlər barədə də məlumat verilib. Hazırda bütün diqqətin qeyri-infeksion xəstəliklərin profilaktika və müalicəsinə, bu sahədə yeniliklərin tətbiqinə yönəldiyini bildirib. Qeyd edilib ki, ölkəmizdə açıq ürək əməliyyatları, uşaq kardiocərrahiyyəsi, böyrək və qaraciyər transplantasiyası, ilik köçürmə, süni oynaq və s. kimi əməliyyatlar icra olunur. Vətəndaşların və uşaqların icbari dispanserizasiyası uğurla həyata keçirilir. Sonda insanların sağlamlığının daim dövlətin diqqətində olacağı, bu yolda ÜST ilə tərəfdaşlığın daha səmərəli formada davam etdiriləcəyi bildirilib.

İcbari tibbi sığorta və onun tətbiqi haqqında danışan baş direktor Azərbaycanda 3 bölgədə icra edilən pilot layihələrdən xəbərdar olduğunu söyləyib. O, ölkəmizdə icbari tibbi sığortanın universal səhiyyə paketi formasında hazırlanması istiqamətində ÜST-ün də xüsusi təkliflər vermək arzusunu nəzərə çatdırıb, qeyd edib ki, Azərbaycanda tətbiq olunacaq icbari tibbi sığorta modeli sonralar digər dövlətlərdə də istifadə ediləcək.

Görüşdə Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycanın Milli Əlaqələndirmə Şurasının üzvləri, habelə beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında əlaqələr ildən-ilə genişlənir.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

*Təkrar*

## “Bakı Metropoliteni” QSC istismar və tikinti sahələrinin normal işinin təşkili üçün zəruri olan malların, işlərin və ehtiyat hissələrinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 20-dən (əlaqələndirici şəxs: Zakir Hacıyev; telefon: 490-00-91) ala bilərlər.

LOT-1: “Bakı Metropoliteni” QSC-nin Bənövşəyi xətti üzrə şərti adı “B03” olan stansiyasında asma tavanın quraşdırılması və stansiyanın işıqlandırılma işlərinin satın alınması.

LOT-2: “N.Nərimanov” adına elektrik deposu ərazisində yerləşən A-12 Yarımstansiyası üçün güc kabellərinin satın alınması.

**İştirak haqqı LOT-1 800 manat**
**LOT-2 300 manat**

**Hesabın adı: “BAKI METROPOLİTENİ” QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *metropolitendə analoji işlər üzrə təcrübə.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 noyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 noyabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 20 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 noyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Dövlət sərhədlərimiz etibarlı mühafizə olunur

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri davam etdirilir.

2018-ci ilin 01 oktyabr tarixində DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılması təmin olunmuşdur.

Həmin tarixdə saat 00:56 radələrində Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının “Lənkəran” sərhəd dəstəsinin Astara rayonu Sım kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində həyata keçirilmiş qoşun və əməliyyat-axtarış tədbirləri nəticəsində İrandan Azərbaycana dövlət sərhədini pozaraq keçmiş İran vətəndaşı, 1983-cü il təvəllüdlü Şahbazi Əkbər Dilavər sərhəd pozucusu qismində saxlanılmışdır.



Saxlanılan şəxsin üzərinə baxış keçirilərkən 1 kq 200 qram heroin, 710 qram tiryək, 200 ədəd “tereqabalin” psixotrop maddəsi və 15 qutu “metrotan” həbləri aşkar olunmuşdur. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitəni qəbul etmək üçün həmin əraziyə gəlmiş Azərbaycan Respublikasının vətəndaşları, Astara rayon sakinləri, 1972-ci il təvəllüdlü Əkbərov Rövşən Firuddin oğlu, 1982-ci il təvəllüdlü Vəliyeva Xəyalə Yaqut qızı, həmçinin narkotik vasitənin sifarişçisi Lənkəran rayon sakini, 1986-cı il təvəllüdlü Məmmədov Pərviz Əsəd oğlu saxlanılaraq istintaqa cəlb edilmişdir.

Hadisə ilə bağlı zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

*“Azərbaycan”*

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Daha 51 FETÖ-çünün həbsinə order verildi



Ankara prokurorluğu 2016-cı ildə Türkiyədə dövlət çevrilişi cəhdi ilə bağlı davam edən təhqiqat çərçivəsində daha 51 şübhəli şəxsin həbsinə order vermişdir. Onların arasında quru qoşunlarının 49 hazırkı və sabiq əməkdaşı var. Bu barədə “Anadolu” agentliyi xəbər verir. Məlumata görə, reydlər ölkənin 28 vilayətində keçirilir.

Hərbçilərdən başqa, FETÖ-nün “daxili imamlar”ı adlandırılan iki nəfərin həbsinə order verilmişdir. Onlar ordu strukturlarında FETÖ-nün tərəfdarları ilə əlaqə yaradırmışlar.

## Mərakeş sahillərinin yaxınlığında 615 miqrant xilas edildi



Mərakeşin sahil mühafizəsi İspaniyaya keçməyə cəhd edən 615 qeyri-leqal mühaciri sudan çıxarmışdır. Miqrantların milliyyəti barədə məlumat verilmir.

KİV-in xəbərinə görə, qaçqınları daşıyan qayıqlar pis texniki vəziyyətdə olmuş və batmağa başlamışdır.

Bütün miqrantlar xilas edildikdən sonra Şimali Afrikanın digər ölkələrinin limanlarına göndərilmişdir.

Xatırladaq ki, ötən həftənin axırlarında İspaniya sahillərinin yaxınlığında iki gün ərzində 1200 qaçqın xilas edilmişdir.

## Pakistanda “Ghauri” ballistik raketi sınaqdan keçirildi

Pakistan nüvə silahı daşımağa qadir olan “Ghauri” ortamənzilli ballistik raketini sınaqdan çıxarmışdır. Bu barədə Hindistanın “The Asian Age” qəzeti xəbər verir.

Raketin sınaq buraxılışı Pakistan ordusunun strateji komandanlığı tərəfindən onun operativ və texniki döyüş hazırlığını yoxlamaq məqsədilə həyata keçirilmişdir.

Komandanlığın bəyanatında deyilir ki, “Ghauri”nin sınağı uğurlu olmuşdur. Raket 1300 kilometr məsafə qət edir. Hazırda Pakistan ordusunda bu tip raketlərin üç versiyası var.

Qəzet yazır ki, “Ghauri” Hindistanın bir çox şəhərlərini vurmağa qadirdir.

Xatırladaq ki, bu ilin aprelində Pakistanda 700 kilometr məsafə qət edə bilən “Babur” qanadlı raketi sınaqdan keçirilmişdir. O, müxtəlif tipli döyüş başlıqları, o cümlədən nüvə başlığı ilə təchiz oluna bilər.

## Venesuela Prezidentinə qəsddə şübhəli bilinən siyasətçi intihar etdi



Venesuela Prezidenti Nikolas Maduroya uğursuz qəsddə şübhəli bilinən müxalif siyasətçi Fernando Alban Salazar milli kəşfiyyat xidmətinin mənzil-qərargahına gətirildikdən sonra intihar etmişdir. Baş prokuror Tarek Vilyam Saab bu məlumatı VTV dövlət telekanalına müsahibəsində təsdiqləmişdir. Onun dediyinə görə, baş vermiş hadisənin səbəblərini müəyyənləşdirmək üçün Baş Prokurorluq hərtərəfli təhqiqat aparmaq məqsədilə iki prokuror təyin etmişdir.

Telekanalın xəbərinə görə, müxalifətçi ötən cümə günü Karakasda saxlanmışdı. Srağagün isə o, məhkəmədə hakim qarşısına çıxmalı idi.

Salazar həbs olunduğu gün ailəsi ilə birlikdə yaşadığı Nyu Yorkdan gəlibmiş. Onun mənsub olduğu “Hər şeydən öncə ədalət” partiyası siyasətçinin ölümündə hökuməti ittiham etmişdir.

Xatırladaq ki, bu il avqustun 4-də Milli Bolivar Qvardiyasının yaradılmasının 81-ci ildönümünə həsr olunmuş mərasimdə çıxışı zamanı dövlət başçısını pilotsuz təyyarə vasitəsilə öldürmək cəhdi baş vermişdir. Venesuela prokurorluğunun məlumatına görə, uğursuz qəsddə şübhəli bilinən onlarca adam saxlanmışdır. Onların arasında Milli Assambleyanın (parlament) müxalifətçi deputatı Xuan Rekesens də var. O, ağır cinayətlər törətməkdə ittiham olunur.



## Ukraynada hərbi anbar partladı

Ukraynanın Çerniqov vilayətinin İçnya rayonunda 6 saylı hərbi anbarda partlayış baş vermişdir. Fövqəladə Hallar Dövlət Xidmətindən bildirmişlər ki, bir neçə partlayışdan sonra yanğın başlamışdır. Hadisənin baş verdiyi anbarın ərazisi 682,6 hektardır. Onun 402 hektarı texniki zonadır.

10 min nəfərə yaxın adam təxliyə edilmişdir. 30 kilometr radiusunda hava məkanı bağlanmış, dəmir yolu və avtomobil nəqliyyatının hərəkəti dayandırılmışdır. Ukrayna Silahlı Qüvvələri Baş Qərargahından verilən məlumata görə, döyüş sursatı anbarında partlayışların intensivliyi saniyədə iki-üç dəfə təşkil edirdi. Anbarda 130-150 min ton döyüş sursatının olduğu bildirilir.

Çerniqovun yaxınlığında 18 təxliyə məntəqəsi yaradılmışdır. Dağıntılar və tələfat barədə hələ ki məlumat verilmir. Vilayətin ərazisində, habelə Rusiya və Belarus sərhədi boyu məhdudlaşdırıcı tədbirlər tətbiq edilmişdir.

Xatırladaq ki, 2017-ci ilin martında Xarkov vilayətinin Balakleya rayonunda döyüş sursatı anbarı yanmışdır. Bir nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır. Kiyevdə partlayışı təxribat kimi qiymətləndirmişlər. Ötən ilin payızında isə Vinnitsa vilayətinin Kalinovka rayonunda döyüş sursatları partlamışdır. Ətrafdakı kəndlərdən 30 min nəfərdən çox adam təxliyə edilmişdir. İki nəfər yaralanmışdır.

*Təkrar*

## “Azərişıq” ASC 2018-ci ildə tələb olunan elektrik mallarının və müxtəlif yağ tipli yük altında avtomatik tənzimlənən transformatorların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

LOT-1

Müxtəlif elekrik mallarının satın alınması - 400 manat

LOT-2

Müxtəlif yağ tipli yük altında avtomatik tənzimlənən transformatorların satın alınması - 400 manat

**“Azərişıq” ASC**
**VÖEN: 9900069391**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93; daxili: 23-32).**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30 oktyabr 2018-ci il saat 16:00**-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **6 noyabr 2018-ci il saat 16:00**-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **7 noyabr 2018-ci il tarixində saat 16:00**-da Ələsgər Qayıbov küç., 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## İstehlak Mallarının Ekspertizası Mərkəzi MMC *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 - dəftərxana və təsərrüfat mallarının satın alınması.**

**LOT 2 - hesablama texnikası, katric dolumu və servis xidmətləri.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Səbail rayonu, Xaqani, 82 (əlaqələndirici şəxs: Vəliyev Əhməd Zöhrab oğlu, telefon: (012) 493-47-83, daxili: 3117) ünvanından ala bilərlər.

**İştirak haqqı**

**LOT 1 - 100 manat**

**LOT 2 - 100 manat**

| | |
|---|---|
| **Hesab:** | **AZ48IBAZ40060019449384408207** |
| **VÖEN:** | **1700752861** |
| **Bank:** | **Azərbaycan Beynəlxalq Bankının Nəsimi filialı** |
| **Kodu:** | **805614** |
| **VÖEN:** | **9900001881** |
| **M/H:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T:** | **IBAZAZ2X** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər: iddiaçının tenderdə iştirakına təsir edə biləcək digər müvafiq məlumatlar.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 26.10.2018-ci il saat 17:00-dək, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 05.11.2018-ci il saat 17:00-dək Səbail rayonu, Xaqani, 82 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 06.11.2018-ci il saat 15:00-da Səbail rayonu, Xaqani, 82 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Tender komissiyası bildirir ki, Lot 1. Pirallahı Sənaye Parkının 30 hektar ərazisinin mühəndis xətləri və avtomobil yolları (texniki su, su anbarı və nasosxanalar, avtomobil yolları, məişət tullantı suyu xətti, yağış suyu xətti, yanğına qarşı su xətti, içməli su xətti) üzrə tikinti işlərinin satın alınması məqsədilə qiymət təklifləri təqdim etmiş iddiaçıların sayı üçdən az olması səbəbindən 8 oktyabr 2018-ci il tarixində elan edilmiş təkliflər sorğusu prosedurunun davamından imtina edilir.

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və Nazirlər Kabineti Aparatının əməkdaşları aparatın Humanitar və sosial məsələlər şöbəsinin müdiri Musa Ələkbərova atası

**MƏHƏMMƏDƏLİ ƏLİ OĞLU ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatı Humanitar və sosial məsələlər şöbəsinin müdiri Musa Ələkbərova atası

**MƏHƏMMƏDƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatı Humanitar və sosial məsələlər şöbəsi müdirinin müavinləri Qurban Əmirov, Qurban Sadıqov, Baş nazirin müavininin köməkçisi İsgəndərzadə Mustafayev, şöbənin əməkdaşları Elxan Bağırzadə, Adil Kərimov, Telman Məmmədov, Mirəli Seyidov, Abid Tahirli, Samirə Quliyeva, Mirkamal Seyidov, Rauf Alıyev, Anar Fərhadov, Aytən Qafarova, Məhəmməd Quliyev, Gülnur Aslanlı, Fidan Fərzəliyeva, Sevinc Ağacamalova, Nərgiz Bayramova, Səbinə Bəhlulova Nazirlər Kabineti Aparatı Humanitar və sosial məsələlər şöbəsinin müdiri Musa Ələkbərova atası

**MƏHƏMMƏDƏLİ ƏLİ OĞLU ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatı Humanitar və sosial məsələlər şöbəsinin müdiri Musa Ələkbərova atası

**MƏHƏMMƏDƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Salyan Rayon Məhkəməsinin sədri Əlövsət Paşayev və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı Seymur Aslanova anası

**ASYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin aparat rəhbəri Tariyel Pənahova əzizi

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8407
Sifariş 2973